Azərbaycanda Atatürk Mərkəzi

NAMİK KAMAL ZEYBƏK



# TÜRK OLMAQ

Azərbaycan Respublikası Prezidentinin
İşlər İdarəsi
PREZİDENT KİTABXANASI

AzAtaM
Bakı – 2007

**Məsləhətçi: Nizami Cəfərov**
**AMEA-nın müxbir üzvü, professor**

***Azərbaycan türkcəsinə uyğunlaşdıran:***
**Akif Əhmədgil**

***Redaktoru:* Dəyanət Osmanlı**

**N.K.Zeybək. *Türk olmaq* (*kitabdan seçmələr*)**
**AzAtaM, Bakı, 2007. 80 səh.**

$\frac{4702000000}{N-098-2007}$ ***Qrifli nəşr***

**© AzAtaM, 2007**

# ÖN SÖZ

Qırx ildən bəri oxuyuram, düşünürəm, yazıram və toplumla bağlı çözümləri anlatmağa çalışıram. İlk yazım otuz altı il öncə "Orkun" dərgisində yayımlandı. İlk konfransımı universitet kültür klubunda verdim. Mövzu "Rza Nur"du. 1964-cü ildə Cümhuriyyətçi Köylü Millətçi Partiyanın Gənclik Qolları Baş Bakanı oldum. İki il bu vəzifəni daşıdım. On bir il kaymakamlıq (kaymakam - kəndin böyüyü, başçısı – red.) həyatımda düşüncələrim və inanclarımla bağlı yazılar yazmağa, söhbətlər, danışıqlar aparmağa davam etdim. 1978-79 və 1980-ci illərdə "üçüncü hərəkətin" maarifçilik işlərini yönəltdim. Bu gün də sürəkli düşüncə dünyasının içindəyəm və özüm-özümdən **"Nə istəyirəm?"** deyə, soruşuram... Cavabını isə sizlərlə paylaşmaq istəyirəm.

Millətimizin uzaqlaşdığı köklərə dönməsini, kökləri ilə barışmasını və gələcəyə yetişmək üçün gərəkli olan gücü köklərindən almasını istəyirəm. Köklərindən... Yəni dilindən, dinindən, tarixindən və kültüründən...

"Dilimizlə barışmalıyıq" deyəndə, uluslararsı anlaşmaların borclu sandığı durumlar xaricində, ölkələrimizdə ibtidai məktəblərdən universitetlərə qədər təhsilin türkcə aparılmasını istəyirəm. Alış-veriş dünyasında, satış yerlərində, yeməkxanalarda Türkcənin dirilməsini istəyirəm. Dilimizdə var olan türkcə sözlər dura-dura onları atıb, yerinə başqa dillərdən alınma sözlər qoymaqdan vaz keçilməsini istəyirəm. İstəyirəm ki, Türk dünyasının Türkcələri bir-birinə yaxınlaşsın. Türkcəmiz dünyada yayılsın. Birləşmiş Millətlərin dilləri arasına girsin...

Dinimizlə barışılmasını istəyirəm. Dinə bağlılıq suç kimi görülməsin və göstərilməsin. İslamı dos-doğru yorumlayan (izah edən) Əhməd Yasəvi Atamızın din anlayışının millətimiz arasında yenidən yayılmasını istəyirəm. Allah eşqi, göstərişsiz dindarlıq, insan sevgisi, başqa din və ayrı məzhəblərə xoş məram, qadına hörmət, əməyi müqəddəs bilmək və elmi dinin təməllərindən sayan bir anlayışın hökmranlıq etməsini istəyirəm.

Tariximizlə barışmalıyıq deyirəm. Tariximizi dərindən öyrənməli, çox araşdırmalı və dərindən öyrətməliyik. Tariximizi və tarixi dəyərlərimizi qaralamaqdan vaz keçməliyik. **Tariximizdə qovğaya yol açan dəyərlərimizi barışdırmalıyıq. Fateh və Uzun Həsəni, Teymur və İldırım Bəyazidi, Atatürk və Osmanlı Xaqanlarını birlikdə sevməyi**



**öyrənməliyik.** Tariximizin ağ və aydın olan üzünü də, qaranlıq səmtləri də elmi baxımdan dəyərləndirməyi öyrənməliyik. Fatehin maarifçilik anlayışının saxladığı inkişafı və "Kadızadəlilər"in qasırğasının açdığı fəlakətləri yalnız bir biçimdə dəyərləndirməyi də öyrənməliyik. Tariximizin min ildən bəri sürüb gələn ana yolunu, yəni ilk Türkləri, Sakaları, Hunları, Göy türkləri, Uyğurları, Qaraxaniləri, Teymuriləri, Osmanlıları, Cümhuriyyətimizin cizgisini də, yan yollarını da bir bütünlük içində qavraya bilməliyik. Tariximizin üstün dəyərlərini gələcəyə daşımalıyıq.

Mədəniyyətimizlə, kültürümüzlə barışmalıyıq. Musiqimizə xor baxmamalı, müasirləşdirərək onu gələcək çağlara aparmalıyıq. Ədəbiyyatımızı bir bütövlük içində ələ almalı, düşüncə və ölkə müxtəlifliyinin üstündə ortaq bir türk dünyası ədəbiyyatı məsləkinə yetişməliyik.

Ölkəmizdə demokratiyanın tam anlamıyla gerçəkləşməsini istəyirəm. Seçkilər ən ali demokratiya anlayışını uyğun hala gətirməli: seçilmək və siyasət yeritmək haqqının (hüququnun) və hürriyyətin (azadlığın) önündəki əngəllər aradan qaldırılmalıdır. İnsan hüquq və azadlıqları tam anlamıyla həm "hüquq", həm də "azadlıq" olaraq gerçəkləşdirilməlidir. Demokratiyanın idxalı anlayışının ölkəmizə yerləşdirilməsi dayandırılmalıdır.

...Bilirəm ki, bu görüşlərimdə yalnız deyiləm. Ölkəmizdə, Türk dünyasında bir çox ziyalı da mənim kimi düşünür. Deməк istəyirəm ki, mən də onlar kimi düşünürəm və onların istədiklərini ifadə edirəm. Yəni köklərində birləşən və bilik çağının önünə keçən bir Türk dünyası ölkəsindəyəm.



## TÜRK OLMAQ...

İşte tarladan, ormandan, yeldən böyümüşük,
Ovalarla, dənizlərlə, dağlarla bir.
Tutmuş əllərimiz, yürümüş ayaqlarımız
Güneydən qüzeyə, doğudan batıya.
Türk olmaq - yayılmaq deməkdir.

İçinə... çiçəklərin, ulduzların,
uluslarm içinə gir.
Gecədən gündüzə, əskidən yeniyə
yürü sən, yürü sən.
Türk olmaq - gəlişmək deməkdir.

Yox hələ oğul, qız; yox hələ
Ürəyimizdə qaranlıq, alnımızda kir
Bizə yönələn istərsə, Yer üzü olsun,
istərsə Göy üzü -
Türk olmaq qarşı qoymaq deməkdir.

Bu şer dəyərli şairimiz Fazil Hüsnü Dağlarcanındır. Bu misraları ilk dəfə 1964-cü ildə Ankarada "Böyük sinema"da düzənlənən Ergenekon gecəsində oxumuşdum. Aradan uzun illər keçdi. Amma hafizəmdən heç silinmədi. O zaman hüquq fakültəsinin sonuncu kursunda tələbə idim. Cümhuriyyətçi Köylü Millətçi Partiyanın Gənclik Qolları Genel Başkanıy-

dım. Yeni bir gənclik hərəkatı başlayırdı. Bu hərəkatın üç təməl anlamı vardı. Gəlirlər və sərvətlər arasında adil bir təmələ dayanan toplum (cəmiyyət) qurmaq istəyirdik. Mövhumatçılıqdan uzaq bir İslam həyatı istəyirdik. Türkiyə türklüyünün Türkçülük elmində inkişafını və Dünya türkçülüyünə maraq göstərilməsini istəyirdik. O dövrlərdə sayımız çox az idi, amma inancımıza və düşüncələrimizə olan bağlılığımız, gələcəyə yönəlmiş ümidlərimiz çox yüksəkdi. Həyat su kimi axıb getdi. Olanlar oldu... 1965-ci ildə, sadəcə, universitet tələbəsindən ibarət kiçik bir qrupun başladığı hərəkat 1980-ci illərdə türk gənclərinin yarısını ağuşuna aldı. Sonrası bəllidir...

Mənim fikrimcə, Türklük bir ruh halıdır. "Türk" tarixin ən böyük varlıqlarından birinin adıdır. Bir böyük kültür və dəyərlər sistemi içində yoğrulmuş insanlar topluluğunun adıdır **Türk!..**

"Türk" demək Sakalar deməkdir. "Türk" demək "Hunlar" deməkdir. "Türk" demək Göy Türklər deməkdir. "Türk" demək Qaraxanlılar, Səlcuqlular, Osmanlılar, Teymurilər, Baburlular deməkdir. "Türk" demək Türkiyə Cümhuriyyəti deməkdir. "Türk" demək Azərbaycan, Türkmənistan, Qazaxıstan, Qırğızıstan, Özbəkistan Respublikaları deməkdir.



"Türk" demək minlərcə ildən bəri dalğalanan bayraq deməkdir. "Türk" demək tarix boyunca başı dik olmaq deməkdir.

"Türk" demək 10 milyon kilometrlərlə torpağa yayılmış rəngarəng bir dil deməkdir. "Türk" demək hər zaman tək tanrıya inanmış və son dini, yəni haqq dinini ən doğru şəkildə anlayan və yaşayan insanlar deməkdir...

"Türk" demək insanlığın elm və ədəbiyyat tarixinə Kutadqu-Bilik, Divani Lüğət-it Türk, Divani Hikmət, İbn-Sina, Fərabi, Biruni, Əl-Xarəzmi, Əbuliz, Uluğbəy, Əli Quşçu, Piri Rəis, Katib Çələbi, Oktay Sinanoğlu, Çingiz Aytmatov, Çingiz Dağçını hədiyyə etmiş bir böyük dünya deməkdir.

Baxın, hələ bizim şairlərimizə, nəğmələrimizə, türkülərimizə, küylərimizə, qım-qımamıza, zümzüməmizə, qoşmalarımıza... Baxın, bizim xalq oyunlarımıza... Varmı dünyada belə bir böyüklük, dərinlik və ənginlik?

Türklük bir ümmandır. Bu ümmanda axan hər dərənin suyu, hər buludun yağmuru artıq bizimdir. Bu ümmandan çıxan olursa, onların da yolu açıq olsun!..

Yəni deyirəm ki, Türk olmaq bir şərəfdir, bir güvənc qaynağıdır. Əhməd Kayxan Dədəmin **"Mən millətimi və məmləkətimi dinim qədər sevirəm"** ifadəsinin anlamı da budur.

Yenə deyirəm ki, biz birisinə "Sən Türksən" deyiriksə, deməli, ona belə bir gözəllik, belə bir böyüklük veririk.

Yenə deyirəm ki, bizi Türk yaratdığı üçün Allaha şükürlər olsun!..

Və yenə deyirəm ki, **"Nə mutlu "Türkəm"** deyənə...

## BİZİM MİLLİYYƏTİMİZ...

Millətləri dənizlərə bənzədirlər. Qara dənizin, Mərmərənin, Egeyin, Ağ dənizin və digər bütün dənizlərin və okeanların suları qarışır... Xəzərin suları buxarlanır, digər başqa dənizlərə qarışır. Bir dənizdən qopan sular başqa bir dənizə gedir və həmin dənizin sularına qarışaraq həmin dənizin bir parçası halına gəlir. Amma dənizlər var olur və var olmaqda da davam edir.

Dənizlərin duzluluğu fərqlidir. İçərisində müxtəlif növ canlılar yaşayır. Dərinlikləri fərqlidir. Dalğaların şahə qalxması bir-birindən başqadır. Bir dənizi digərindən fərqləndirən bu ayrılıqlardır.

Millətləri də bir-birindən fərqləndirən onların sahib olduğu kültürlərdir. İnsanlar və toplumlar mənsub olduqları millətlərdən qopa bilir, yeni bir millətin kültürü içində əriyərək yeni bir milli kimliyə qovuşa bilirlər. Buna baxmayaraq, qopduqları kültürlə də əlaqələrini davam etdirə bilərlər. Bizim millətimizin də bu anlamda itirdikləri və qazandıqları var.



Maldiv adalarında olarkən bir söhbətdə Misirin Hindistandakı səfiri "Misir xalqının yüzdə iyirmisinin türk əsilli olduğunu, amma türkcəni unudaraq ərəbləşdiklərini" söyləmişdi. Doğrudur... Səlim xanın fəthinə qədər Misir dövlətinin adı "Türkiyə" idi. Bu dövləti idarə edənlər də Qıpçaq türkləri idi. Osmanlıların fəthindən sonra Misirə Osmanlı türkləri də yerləşdilər. O zamanlardan qalan Osmanlı türkləri və Qıpçaq türkləri necə oldu? Təbii ki, Misir ərəblərinin içində əriyib getdilər. Onların türklüyü bu gün üçün, sadəcə, bir tarixi xatirədən ibarətdir. Buna qarşılıq Avropadan və Qafqazlardan gələrək bizim milli kültür dairəmiz içərisinə girən insanlar və toplumların kökləri nə olursa olsun, artıq bizim Anadolu Türk kimliyimizin bir parçasıdır. Gəldilər və qaynayıb qarışdılar. Əgər unutmamışlarsa, köklərini xatırlamaları və gəldikləri köklərinə sevgi və bağlılıq duymaları təbiidir. Bütün bunlar da bizim milliyyətimizin zənginlikləridir, maraqlarımızın qaynaqlarıdır.

Bizim Anadolu Türk kimliyimizin kültür zənginliyi bir yandan ona qoşulan mədəniyyətlərin, o bir yandan coğrafiyamızın dərinliklərindən gələn kültür qatlarından bəslənmişdir. Arımız hər çiçəkdən bir şirə toplayaraq "öz balını" yaratmışdır. Yaxşı da

etmişdir. Əlbəttə, eyni durum Azərbaycan, Türkmənistan, Özbəkistan, Qazaxıstan, Qırğızıstan, Tatarıstan. Başqırdıstan, Uyqur, Altay, Tuva, Şor, Saka, Qaraçay-Balkar, Noğay, Kumuk, Kırım, Ağıska və Avropa türkləri üçün də keçərlidir.

Bütün bunlardan sonra ortaya bizim gözəl Dünya Türklüyümüz, yəni Milliyyətimiz çıxmışdır. Okeanlar kimi böyük və görkəmli Milliyyətimiz...

* * *

Tarix Şumerlərlə başlayır. Daha doğrusu, Tarix elmi şumerlərin yazını icad etməsiylə başladığı üçün və bəşəriyyətin keçmişi haqqındakı yazılı qaynaqlar həmin tarixdən sonra tapıldığı üçün belə deyilir. Şumerlər Asiyanın ortalarından Fərat və Dəclə çaylarının ortalarına gəlmişlər, buradakı yerli xalqları təşkilatlandıraraq üstün bir idarəçilik sistemi və qabaqcıl bir mədəniyyət qurmuşlar.

Şumer dili Türkcəyə çox bənzəyir. Şumer dilində də bugünkü türk dillərində istifadə olunan çox sayda sözlərin olduğunu elm adamları söyləyirlər. İndi "Şumerlər türkdür" desək, bəlkə də çox doğru bir ifadə olmaz. Çünki "türk" kəlməsi ən azından bugünkü məlumatlara görə, şumerlərdən minlərcə il sonra yayılmışdır. Ancaq "türk" sözünü bu gün qavradığımız anlamda işlədirik. Zamanda və zəmində



milliyyətimizə yeri gəldi-gəlmədi "türk" deyiriksə, onda "şumerlər də türkdür"... "Su" sözü "əsgər" deməkdir. "Subaşı" (Anadolu türkcəsində - tərc.) sözü də buradan gəlir, "əsgər başı" (başçısı) deməkdir.

Bizim Anadolumuzdakı Türk milliyyətimizin köklərini axtararkən qarşıma çıxan ilk mənbə ən azından Ön Türklərdən sayıla bilən Şumerlərdir.

Anadoluda minlərcə ildən bəri yaşayan bir çox xalqlar da, əlbəttə, bizim Anadolu Türk milliyətimizin içində öz varlığını davam etdirir.

Türk millətinin tarix elmi tərəfindən açıq təsbit edilən qisminin bunlardan başladığını nəzərə alsaq, Anadoludakı varlığımızın bir boyunu da iki min il əvvələ, keçmişə götürə bilərik. Bunlar bugünkü Türkiyə torpaqlarının bir çox bölümünü hökmranlığı altına almışlar və yerləşmişlər.

Tarix boyunca Türkiyəyə Şərqdən və Qərbdən dalğalar halında: Oğuzlar, Uzlar (Avropadan gələn Oğuzlar), Peçeneklər və Qıpçaqlar yerləşmişlər. Bunların çoxu xristian olaraq gəlmişlər, Bizans ordusunda "Türkopol" deyilən birlikləri yaratmışlar. Digər tərəfdən krallıqlar qurmaq qədər ciddi şəkildə bəzi bölgələrə yerləşmişlər. Söz gəlişi, Trabzon, Rizə, Gümüşxanə və Artvində, Bayburt və Qarsın bəzi bölgələrində, Ərzincan torpaqlarında yerləşən xristian Qıpçaqlar bir yandan Bizansın sərhədlərini qorumuş, digər yandan isə 2,5 yüz il sürən bir Orto-

doks Qıpçaq Krallığı qurmağı da bacarmışlar. Bu gün hələ həmin bölgələrdə min ili aşan Oğuz Türkcəsinin təsirinə baxmayaraq, Qıpçaq Türkcəsinin özəlliklərini qoruyan ağızların (ləhcələrin) var olmasının anlamı da budur. Sonradan bu bölgələrə Çepni kimi Türkmən boyları yerləşsə də, buradakı ləhcələrin Qıpçaq özəlliyi çox da pozulmamışdır.

Bu gerçəkləri bilincə, Müsəlman Oğuz bəylərinin "kafirlərlə olan savaşlarını" anladan Dədə Qorqud boylarındakı "kafir bəylərinin" adlarının nə üçün türkcə olduğu sualına cavab tapılır. Məsələn, Qıpçaq Məlik bir kafir bəyidir. Qıpçaq Məlik xristian olduğu üçün kafir sayılıb. Yenə Trabzonun xristian hökmdarının qızının adının nədən "Selcan xatun" olduğu da asanlıqla aydınlaşır. Bu gerçəklərin işığında "Pontus məsələsi"ni də yenidən gözdən keçirmək gərəkdir. Açıq bir şəkildə qəzəb və hiddətlə söyləmək lazım gəlir ki, bu gün də türkcədən qeyri bir dil bilməyən, amma xristian olan "Gürcüstan Rumları" Yunan hökumətinin zor tətbiq etməsi sayəsində rumca öyrənirlər. Yunanıstanda bu dili öyrənməyə tabe edilir və gözümüzün önündəcə Rum millətinin içində əriyirlər. Vaxtı ilə "Bunlar Rumdur" deyə, Yunanıstana göndərdiyimiz Karaman və Talas xristianları kimi...



Tarixdə belə şeylər olur. Bir millətə mənsub olan, başqa bir millətin kültürünü mənimsəyərək, həmin millətin ünsürü halına gələ bilər.

Yenə bizim Türkiyə türk milliyətimizə gəlincə, o, xristian Qıpçaq, Peçenek və Oğuzların böyük çoxluğu ilə, Karaman və Talas xristianlarının xaricində, 1071-ci ildən sonra başlayaraq, Anadolunun siyasi anlamda türkləşməsindən sonra müsəlman olmuşlar və Türk milliyətinin içində öz yerini almışlar. Bunlardan bir qisminin də Malazgirt döyüşündə Türk ordusu sıralarına keçdikləri məlum bir həqiqətdir.

Türkiyə türk millətini yetişdirən ünsür də Xəzərin Şimalından və İran üzərindən dalğalar halında Şərqi Anadoluya və daha sonra bütün Türkiyəyə yayılan müsəlman türk axını və onların yerləşməsidir. Bu tarixi yolun meydana gətirdiyi inkişaf isə Fars mədəniyyətinin fövqəladə təsiridir. Bu səbəbdən, məsələn, ilk gələn dalğalardan Qırmanclar və Zazalar farscanın çox böyük təsirinə məruz qalmışlar və necə deyərlər, yeni bir dil yaratmışlar. Daha sonra Böyük Səlcuqların ortaya çıxmasının, ayrı bir aqibətə uğramasının qarşısını sayca çox olmaları və yolu çox sürətlə (təbii ki, söhbət tarixin sürətindən gedir) qət etmələri almışdır.

Bu arada Yəhya Kamalın **"Bu Əhməd Yasəvi kimdir? Bir araşdırın, görəcəksiniz. Bizim milliyətimizi onda tapacaqsınız"** sözlərini yada salma-

ğın tam yeridir. XII yüzillikdə Türküstanda yaşayan "Piri-Türküstan", yəni Xoca Əhməd Yasəvi minlərcə tələbəsinə türkcə söyləmək alışqanlığını qazandırmış və ortaya qüdrətli bir Türk ədəbiyyatının çıxmasını gerçəkləşdirmişdir. XIII yüzillikdə Türkcə artıq həm gündəlik həyatın, həm də ədəbiyyatın dilidir. Böyük Osmanlı fenomenini başladan da bu amildir.

Osmanlıya gəlincə, Osmanlı tarixin ən böyük bir fəslidir... Üç qitəyə yayılmış, yüksəliş nöqtəsi sayılan Qanuni Sultan Süleyman dönəmində "Dünya Xaqanlığını" ələ keçirmiş, yüksək kültür dəyərləri ilə bugünkü Türkiyənin türk milliyyətinin yer aldığı mədəniyyət zəminini hazırlamıəşdır. Qafqazlardan, Avropadan və hətta Afrikadan gələnlərin ana dilinin türkcədən fərqli olmasına baxmayaraq, onlar da türkcəni və Türk mədəniyyətini mənimsəmişlər. Türkiyə türklüyü içində ərimiş, amma özündən də müəyyən şeylər qataraq, bu milləti zənginləşdirən bütün ünsürlər Osmanlının millətimizə hədiyyələri olmuşlar.

Təbii olaraq, ana mənbədən, yəni Şərq türklüyündən sürəkli axıntılarla bəslənən bu uca toplum əslində bu gün bu görkəmli biçimi almışdır. İndilərdə heç kim narahatlıq hissi keçirməsin ki, Qafqazlardan və Asiyadan yeni axın olacaqdır.



Millət tarixin bir anında var olmuş, bitmiş və donmuş bir gerçəklik deyildir. Millət yaşayan, gəlişən (inkişaf edən), dəyişən və bunun sayəsində gücünü, diriliyini qoruyan bir varlıqdır. Bu gün coğrafiyamız içində var olan toplumlar Türk millətini yaratmağın, onun şərəfli üzvü olmağın qürurunu yaşamaq haqqına sahibdir. Türkiyə Cümhuriyyəti məhz bu millətin dövlətidir. Avropadakı, Asiyadakı, Qafqazdakı türk millətləri isə bizim millətimizin başqa təzahürləridir. Onların da özlərinin özəl macəraları vardır. Onlar da özünün fərqli özəlliklərini qorumaq istəyirlər. Türk Dünyası Birliyi isə bütün bu fərqliliklərlə bərabər rəngarəng bir birlikdir. Birliyimizin və birliklərimizin yolunu açaraq doğru ölçü isə "çoxluqda birlik" inamına yetişməkdir.

Azərbaycan Respublikası Prezidentinin
İşlər İdarəsi
PREZİDENT KİTABXANASI

## ATATÜRK VƏ TÜRK MİLLƏTİ

Türkiyə Cümhuriyyətinin qurucusu Mustafa Kamal Atatürk tariximiz və millətimiz üçün deyirdi: **"Türkiyə Cümhuriyyətini quran Türkiyə xalqına Türk milləti deyilir. "Millət" sözündən nə anlaşılır? Bunu anladım: sözlərimin asan anlaşması üçün, yenə Türk millətinə baxacağam! Çünki yer üzündə ondan daha böyük, ondan daha qədim, ondan daha təmiz bir millət yoxdur və bütün insanlıq tarixində görünməmişdir.**

**Bugünkü Türk millətinə bir rəsm toplusuna baxan kimi baxaq və indiyə qədər aldığımız biliklərin yardımıyla düşünək! Bir tabloda nələr görürüksə, bir tablo bizə nələri xatırladırsa, onları bir-bir söyləyək.**

**Türk milləti Asiyanın qərbində və Avropanın şərqində olmaq üzrə quru və su sərhədləri ilə ayırd edilmiş, dünyaya tanınmış böyük bir yurdda yaşayır. Onun adına (Türk eli) deyilir. Türk yurdu daha böyükdür. Yaxın və uzaq zamanlar düşünülürsə, Türkə yurd olmayan bir qitə yoxdur. Bütün dünyada - Asiya, Avropa, Afrika və hətta Amerika Türk atalarına yurd olmuşlar. Bu həqiqətlər qədim və özəlliklə yeni tarixi biliklərlə bilinməkdədir. Fəqət bugünkü Türk milləti varlığı üçün bugünkü yurdundan məmnundur. Çünki Türk milləti dərin və şanlı bir keçmişin; böyük, qüdrətli atalarının müqəddəs maraqlarını bu yurdda da mühafizə edə biləcəyindən, o mirasları indiyə qədər olduğundan daha çox zənginləşdirə biləcəyindən əmindir.**

**Türk millətinin hər bir insanı bir çox fərqli cəhətlərlə yanaşı, əsasən, bir-birinə bənzəyir. Bəzi yanlış fərqlərini isə təbii saymaq lazımdır. Çünki Misir və ya İraq çöllərindən başlayaraq, Orta Asiya, Qafqazlar, Anadolu, dünənki və bugünkü Yunanıstan, arxasında Girid, Romalılardan əvvəl Orta İtaliya daxil olmaqla Ağ dəniz sahillərinə qədər yayılmış və başqa yerli toplumlarla minlərcə il yaşamış, qaynamış, bu qədər qədim və bu qədər böyük insan topluluğunun bugünkü cocuqlarının eyni ilə bir-birlərinə bənzəmələri mümkündürmü? Hər zaman, hər yerdə kiçik bir ailə cocuqlarının belə tamamən bir-birlərinə bənzəmələri mümkün deyil.**

**Türk millətini yalnız bir nöqtədə, iqlimi eyni dar bir məntəqədə zənn etmək doğru deyildir. Türk milləti yuxarıda söylədiyimiz kimi, çox böyük bir sahədə yerləşmiş ailələrin birləşərək nəsil və nəsillərin birləşərək boy və boyların birləşərək siyasi bir topluluq olan El və ən nəhayətdə Ellərin bir mərkəzdə birləşmələriylə böyük bir camiya (camaat) əmələ gətirmişdir. Bu böyük türk cami-**

**yasını yaradan insanların nitqləri arasındakı fərq böyük olmamaqla yanaşı, köklərin genişliyini, nüfuzun çoxluğunu düşündükcə, Türk xalqları arasındakı mənəvi bağların daim inkişafda olması və müxtəlif rollar oynaması təbii görünür. Bu səbəbdəndir ki, tarix keçmişini yazdığı millətləri harada, necə və hansı halda tanıdısa, o cür də yazmışdır. Belə olmaqla bərabər bugünkü Türk millətinin əsası eyni kökün, eyni uzun ortaq keçmişin təsbit etdiyi məlum tipdir, Türk tipi...**

**Türk *milləti özünü və məmləkətini yüksək* mənfəətləri əleyhinə çalışmaq istəyən pozğun, alçaq, vətənsiz, milliyyətsiz beyinsizlərin gizli və kirli əməllərini anlamayacaq və onlara boyun əyəcək bir heyət deyildir. Türk millətinin sosial nizamını pozmağa yönələn qüvvələr boğulmağa məhkumdur (1929).**

**"Bu məmləkət tarixdə Türkdür, bu gün Türkdür və əbədiyyən Türk olaraq yaşayacaqdır" (1932).**



## TÜRK ZİYALISI

Türk ziyalsı öncə Türkün tarixini bilməlidir. Türkün mənəvi köklərini və tarixini bilməyəndən Türk ziyalısı olmaz.

Göy türk kitabələrini, Qutadqu Bilik, Əhməd Yasəvi hikmətlərini, xidmətlərini və görüşlərini bilməyən birisinə Türk ziyalısı deyilməz.

Yunus Əmrəni, Mevlananı, Hacı Bektaş Vəliyi, Şeyx Bərəddini, Mühiddin Ərəbini, İmam Rəbbanini, Ağ Şəmsəddini bilməyən bu millətin dərinliklərinə vara bilməz.

Birunini, Fərabini, Xarəzmini, İbn Sinanı, Uluq bəyi, Əli Quşçuyu öyrənmədən Türkün tarixindəki yeri necə anlaşıla bilər?

İki min il öncə milli özünüdərki ortaya qoyan Cuci xanı, millətimizin ilk müsəlman hökmdarı Satluq Buğra xanı, Səlçuqların ən böyük xanı Alparslanı və onun oğlu, elm, sənət və dövlət adamlarının hamısı Məlik şahı, Qurucu Osman bəyi, iyirmi bir yaşında Fateh olan sənət və elm aşiqi Sultan Mehmeti, məğlubiyyət dadmayan cahangir Teymur xanı bilməyən neçə Türk ziyalısı ola bilər?

Cümhuriyyətimizin köklərini, inkişafını və dəyərini, Atatürkü, Atatürkün hədəflərini qavramadan Türk ziyalısı sifəti ola bilərmi?

Cümhuriyyətin təməlində yüksək Türk kültürü və Türk qəhrəmanlığı vardır.

Cümhuriyyətimiz çağdaş mədəniyyətin üstünə çıxmaq amacındadır.

Cümhuriyyətimizin yolu ağıl və elm yoludur.

Cümhuriyyətimiz öz kökləri ilə qovğa edən bir anlayışı və öz köklərinə saplanıb qalan bir qavrayışı qəbul etməz.

Türk aydını köklərinə sahib çıxmalı, amma dünya kültürünü də düşmən görməməlidir. Dünya kültürünə verəcəyimiz dəyərlər bizim şanımız, dünya kültüründən alacaqlarımız da qazancımız olacaqdır.

Türk aydını elmi biliklərə yiyələnməli və elm dövrünün ziyalısı olmaq nizamına yetişməlidir.

Türk Aydını öz mənliyindən qopmadan insanlıq aləminin işıqlı yollarında yürütməyi öyrənməlidir. Türklüyün böyük gələcəyinə doğru. Məlumatlı, bilikli və qərarlı addımlarla!..



## İNSANI SEVMƏK

Lisey illərində bir yoldaşım vardı. Şer yazardı. "Humanizm" onun həyatının təməl doğrusuydu. Mənim milliyyətçi - Turançı təftiş edir və (mücərrəd şəkildə) insanlığı müdafiə edirdi. Bir gün bir söhbət əsnasında mənə içini açaraq, "insanları sevmirəm..." dedi və ardınca əlavə etdi: "Anamı, atamı da sevmirəm..." Demədim ki, "Ay qardaş, ananı və atanı daha sevmədən, necə insanpərvər, necə humanist olur?.." Demədim... Çünki həmin yoldaşımı yaralamaq istəmədim.

Daha sonra bu söhbət üzərində çox düşünübdaşındım və o arkadaşıma bənzəyənləri çox gördüm. Söz gəlişi, bir məsul vəzifəli arkadaşım sosialist idi. Ancaq işçiləri sevmirdi, işçi sinfini bəyənmirdi. "Bunlardan heç bir şey olmaz" deyirdi.

Özüm-özümdən çox soruşdum: "Mən Türk millətçisiyəm... Çox yaxşı... Türkləri sevirəmmi?.. Bu küçələrdən axıb gedən insanları, içərisində gənclər var, yaşlılar var, yaramazı var, övliyalar var, aşiqlər var, günah işlətməmək üçün titrəyənlər var, günah bataqlığında çarpışanlar var. Hər cinsdən, hər cür insanlar var..."

"Bəli" deyirəm özüm-özümə. **"Mən bu insanları sevirəm... Hamısını sevirəm... Millətimin övladlarıdır onlar... Tarixdə nə etdiksə, onlarla etdik...**

**Bu günü də onlarla qurur, gələcəyimizi də onlarla quracağıq..."**

Millətçilik deyincə, xəyalımızda var etdiyimiz üstün insanlardan meydana gələn bir millət və onun millətçiliyi deyə anlamaq; var olan və yaşayan şəxslərin sıxıntıları, acıları, sevincləri, sevgiləri, nigarançılıqları ilə gündəlik həyatlarını sürdürməyə çalışan əsl insanlar topluluğundan yaranan milləti inkar etmək nə qədər yanlış bir fikirdir.

Türk dünyası, Türkiyənin xaricindəki türklərin varlığı minlərcə turançının könlündən "nazlı bir həyat"dır. Lisey və universitet illərində Azərbaycandan konsert verməyə gələn Rəşid bəyi və Zeynəb xanımı necə də həyəcanla dinləyərdik. Azərbaycanın yüksək sənəti və sənətçilərinin ustalığı bizi xəyallar dünyasına götürürdü. İçərimizdən bəziləri üçün Azərbaycan və Türküstan türkçülüyü, Türklüyün bütün tarix və dastan bakirəliyinin saxlandığı yer kimi görünürdü. Oralardakı insanlar Göy türk atalarımız kimi görünür. Göy türklərə aid edilən üstünlüklər onlardan gözlənilirdi.

1990-cı illərdə divarlar və dəmir pərdələr yıxıldı. Daha sonra Azərbaycanın, Qafqazın, Türküstan coğrafiyasının türkləri ilə görüşlər və tanışlıqlar başladı. Türkiyəyə 10 mindən çox tələbə gəldi. Olaylara real baxanların arzusu gerçəkləşdi, bilgisi artdı və yuxu olanın həqiqətə çevrilməsinin həyəcanını yaşadıq. Amma gördük ki, bəzi insanlarımız Türkiyə insanında gördükləri qüsurları və qüsurları da görüncə, röya qırıqlığına (üzüntüsünə) uğradı və həyəcanları sönüb getdi. Bir də önlərinə iş görmək, çörək vermək kimi çətinliklər çızınca Turanın türklərini safçürük etmək yolunu seçməli oldular. Deyirəm ki, bax, Turan coğrafiyasının türkəri bunlardır: savadı və savadsızlığı ilə, yüksək əxlaqı və yetərincə əxlaq sahibi olmayanları ilə, milli məlumatı (bilgisi) olanları və olmayanları ilə... Bax, bizim insanlarımız bunlardır. Keçmişdə, yəni Hunlar və Göy türklər çağında da belə idi... Bizə düşən 200 milyonluq Türk varlığını olduğu kimi sevmək və ucalıqlarını inkişaf etdirib, yanlışlıqlarını düzəltmək məsələsində onlara yardımçı olmaq deyilmi?!.

Deyirəm ki, təməlimdə insana sevgi, yəni o tək insana sevgi, yəni ayrıca bir insana sevgi, acıma və yardım duyğusu olmayan bir düşüncənin, "insanlığın", "milliyyətçiliyin", "müsəlmanlığın" çox da anlamı yoxdur.

Özündən və yaxın çevrəsindən və ya kiçik qohum-əqrəbasından və ya partiya mənsubundan başqa hər kəsi cəhənnəmə atmağa çalışan və cənnəti başqa insanlara qısqanan bir müsəlmanlıq anlayışı İslamdan nə qədər uzaqdır. Baxın, nə deyir Qoca Yunis bütün insan sevgiləri ilə gerçək müsəlmanlığıyla içindəki riyasız, göstərişsiz, siyasətə və ticarətə alət

etdiyi müsəlmanlığı ilə necə də tanınır Çələbisinə, Tanrısına, Xudasına, Allahına:

**"Qullar Sənin, Sən qulların**
**Günahları çox bunların.**
**Cənnətinə qoy bunları**
**Minsinlər bura, Çələbim..."**

Türkcəmizin, müsəlmanlığımızın və doğru müsəlmanlıq anlayışımızın yorucusu, Yunisin böyük Piri Əhməd Yasəvi insanları sevmənin və acımanın dəyərini bir başqa cür anladır:

**"Qərib, fağır, yetimləri Allahın elçisi sordu,**
**O gecə Miraca çıxıb Allahı sordu,**
**Geri dönüb yerə endiyində fağırları sordu,**
**Qəriblərin izini arayıb endim mən də..."**

Əhməd Yasəvi atamız gözəl söyləyir: "Allah elçisinin vardığı ən yüksək məqam Niracdır. Vardığı yerə Ondan başqa heç kimsə varamamışdır..." Var edənə, var edilən üçün ən yaxın dərəcədir o dərəcə. Cəbrayıl belə oraya çıxmamışdır: **"Elçi, qərib, fağır, yetimlərin halını sorduğu üçün oraya vardı və döndükdən sonra da yenə eyni işi gördü..."**



## ƏHMƏD YASƏVİ YOLU

Əhməd Yasəvi tarixdəki adıyla türklərin piridir. Millətimizin ən önəmli müəllimidir. Millətimizin yuğuran insanıdır. Çox anladılmalı, yaxşı anlaşılmalı və getdiyi yol yaşanmalıdır. Keçmişimizin aydınlığı Əhməd Yasəvidir. Gələcəyimizin kökləri isə keçmişimizin içindədir. Türküstanda yayılan adıyla Həzrəti Sultanı üç xidməti və **yeddi məqamı** ilə anlatmaq istəyirəm.

Xoca Əhməd Yasəvinin üç xidmətindən **birincisi,** ziyalılarımızın ərəb və farsca yazdığı bir dövrdə XII əsrdə türkcə hikmətlər yazmasıdır:

**"Sevirlər alimlər Türkün dilini,**
**Ərənlərdən eşitsən, açar könül evini,**

Türkcə İslami şerlər yazmaq adətinin bünövrəsini və açdığı cığırla böyük bir ədəbiyyat yolunun başlanğıcını qoymuşdur. Türkcənin bugünkü diriliyinə və yayılmasına görə böyük anlamda Həzrətə borcluyuq.

**İkincisi,** Əhməd Yasəvi yetişdirdiyi tələbələrini müəllim kimi Türk dünyasına göndərmiş, millətimiz arasında İslamı yaymış, yeni bir ruh ilə insanlarımızın böyük bir inkişaf ortaya qoymasina səbəb olmuş-

dur. Teymurilərin də, Osmanlıların da təməlində Yasəvi Ruhaniyyəti vardır.

**Üçüncüsü,** Əhməd Yasəvi İslamın dosdoğru yolu olan İslamın Türk yozumunu ortaya çıxarmışdır. Bu yozumun əsaslarını da **yeddi məqamla** ifadə etmişdir.

**Birincisi,** Allaha eşqlə tapınmaq. **"Eşqi olmayanın nə dini vardır. Nə də imanı".**

**İkincisi,** ihlas... Yəni riyakarlıqdan, göstərişdən uzaq, sadəcə Allah üçün olan müsəlmançılıq. "Göstərişlə son nəfəsində imanını itirir".

**Üçüncüsü,** insan sevgisi. İnsan var edilənlərin ən müqəddəsidir. Çünki insan özüdür, əzəlidir... İnsanın dərdi ilə dərdlənmək (dərdinə şərik olmaq) insana xidmətdir, İslamın tam özüdür:

**"Qərib, fağır, yetimləri Allahın elçisi sordu,**
**O gecə Miraca çıxıb Allahı sordu,**
**Geri dönüb yerə endiyində fağırları sordu,**
**Qəriblərin izini arayıb endim mən də..."**

**Dördüncüsü,** bərabərlik insanlara din, dil, irqi, cinsiyyət fərqinə görə seçilməməsi, fərqli cəhətlər savaş mövzusu olmamalıdır.

**Beşincisi,** qadın və kişi yoldaşlığı... Əhməd Yasəvi anlayışında qadın və kişi cəmiyyətdə, məclisdə, Allah dərgahında bərabərdir.



**Altıncısı,** çörəyin və işin halallığı. Əhməd Yasəvi inancında insanın öz yaşamını halal əməyi ilə təmin etməli və çalışması əsasdır. Həzrət minlərcə tələbə yetişdirərkən belə yaşamanı özünün düzəltdiyi qaşıq və keçilərlə saxlayırdı.

**Yeddincisi,** elm... Dinin əsası elmdir. Elm insanı Allaha qovuşduran və Yaradana tapındırandır.

Əhməd Yasəvinin üç xidməti və yeddi inancı bizim sabahlarımızı aydınlığa çıxaran bir yoldur.

## ƏHMƏD YASƏVİNİ TANIYIRSINIZMI?

1989-cu il. Türkiyə Cümhuriyyətinin Mədəniyyət Nazirliyi yenidən qurulmuş və nazir təyin olunmuşdum. Qazaxıstandan Yazıçılar İttifaqının sədr yardımçısının görüşmək istədiyini söylədilər. Sevinclə qəbul etdim. Qonaq salam-kalamdan sonra sözə başladı: **"Qazaxıstanın Türküstan adlı bir şəhəri var. Bu şəhərdə böyük filosof, şair Əhməd Yasəvinin türbəsi var. Bu türbə YUNESKO tərəfindən bəşəriyyətin ortaq kültür mirası sayılır. Bundan altı yüz il öncə Əmir Teymur tərəfindən inşa edilən bu böyük əsər, yaxınlığından su kanalları keçməsi dolayısıyla təməli su aldığından və yetərincə baxılmadığından xarab olmaqdadır. Mən bu əsərin qorunması və yelənməsi üçün bü-**

**tün dünyadan axra (pul-para) toplamaq istəyirəm. İlk olaraq Türkiyəyə gəldim. Daha sonra da Avropa və Amerikaya gedəcəyəm. Mənə yardımçı olarsınız?"**

"Xeyr, olmam" dedim.

**"Siz heç bir yerə getməyəcəksiniz. Türkiyə Cümhuriyyəti olaraq, bu andan etibarən bu işi biz görəcəyik. Əhməd Yasəvi, bizim millətimizin borclu olduğu bir insandır. Böyük şair Yəhya Kamalın "Əhməd Yasəvi bizim millətimizin təməlidir!"** anlamındakı sözləri çox söyləyirik. Türkiyə coğrafiyasının türkləşməsində, Türkiyə dövlətinin qurulmasında və Osmanlının meydana gəlməsində ən böyük pay sahibi olan Xorasan Ərləri, Anadolu Ərənləri, Alp Ərənlər və Qazi dərvişlər deyə adlandırılan uca insanların müəllimləri və başçıları olan Hacı Bektaş Vəli, Yunus Əmrə, Abdal Musa kimi ustadların Baş müəllimi Əhməd Yasəvinin açdığı yol sayəsində dilimiz dirilmiş, dinimiz yayılmış və doğru din anlayışı əmələ gəlmişdir. İndi onun türbəsini təmir etdirmək bizim borcumuzdur..."

Qonaq mən danışarkən öncə çaşqınlıq ifadə edən bir görkəm aldı. Sonra gözləri doldu. Mən sözümü bitirəndə o ağlayırdı: "Siz Əhməd Yasəvini tanıyırsınızmı? Siz ulu atamızın kim olduğunu bilirsinizmi? Siz ortaq babamızı unutmamısınızmı?"



Söhbət tamamlandıqdan sonra qonağımız sevinc və ümid içində Qazaxıstana geri döndü. Bundan sonra verdiyim sözü yerinə yetirmək üçün Qazaxıstan mədəniyyət naziri ilə görüşlərə başladıq, nümayəndə heyəti göndərdik, araşdırmalar apardıq. Önümüzə bir çox əngəllər çıxdı.

1992-ci ildə TİKA yaradıldıqdan sonra Türkiyə tərəfindən əngəllər aradan qalxdı və Qazaxıstan tərəfiylə aparılan anlaşma nəticəsində türbənin təmiri və yeniləşməsi işinə başladı. İnanırıq ki, Türküstan şəhərinin yaranmasının 1500-cü (əslində 2500-cü) ildönümü mərasiminədək türbə yeniləşəcək.

## "TOPLUMÇULUQ"

Qərib, fəqir, yetimləri sevindir.
Özün fədakarlıq et,
Tapdığın yeməyi
Müsafirinlə paylaş...

Yuxarıdakı misralar Divani Hikmətdən götürülmüşdür. Mirac insan oğlunun yetişə biləcəyi ən böyük ucalıqdır. Miraca Həzrəti Cəbrayıl da yetişə bilmədi, "yanar, yox olaram" dedi. Bu uca yerə Tanrının Elçisi necə yetişdi? Yasəvi atamız deyir: "Qərib, fəqir, yetimləri elçi sordu..."

Deməli, qərib, fəqir, yetimləri sorduğu üçün Elçi Miraca yüksəldi və dönüb yenə onların hamısını sordu. Onların halını soruşub nə etdi? Ehtiyaclarını qarşılayacaq yardımlar etdi...

İnsanın beş təməlindən biri sayılan zəkatın məqsədi nədir? Varlıdan alıb, yoxsula dağıtmaq deyilmi? Zəkat 40/1 nisbətində həyata keçirilsə varlıqlar arasında adil bir nizam-tərəzi yaranmazmı? Əhməd Yasəvinin yolu ilə gedən Yunis Əmrə deyir:

Çalış, qazan, ye, yedir,
Bir könül ələ gətir,
Min Kəbədən yaxşıdır
Bir könül ziyarəti.



Yenə Yasəvi Atamıza ünvanlayaq sözlərimizi:

Harada könlü qırıq görsən
Ona məlhəm ol!
Yolda qalmış zavallıların
halını sor, onlara yardımçı ol!
Ancaq beləcə məhşər günü
Peyğəmbərimizə yaxın ola bilərsən.
Peyğəmbər Mədinəyə varıb qərib oldu
Və bu qəribçilikdə çəkdiyi sıxıntılarla
Yaradana yaxın oldu.
Ağıllısansa qəriblərin könlünü al.
Peyğəmbər kimi ölkəyi gəzib yetimləri ara.
Özündən başqasını düşünməyən
uzaq ol əsli, kökü olmayanlardan.
Qərib, fəqir, yetimləri sevindir.
Özün fədakarlıq et,
Tapdığın yeməyi
Müsafirinlə paylaş...

Dinimizim təməlində yardımlaşma vardır. Millətimiz "dayanışma" anlayışına qiymət verir. İnsanlığın dəyişməz məsələlərindən birisi də içində yaşadıqları toplumun bütün üzvlərini bəli bir yaşam nizamının üstünə çıxarmaqdır. Bunun üçün toplumlarda gəlirlər, xərclər arssında bəlli ölçülər saxlanmalıdır. Sadəcə, bir fikirdən çıxış edərək, pozulan nizamı bə-

hanə edərək, insanlığın başına böyük dərdlər açan ideologiyalar ortaya çıxmışdır. Bu ideoloqların söylədiklərinin yarısı doğruydu, yarısı yalan isə "yarısı doğru olan yalsındır".

Dünyada sinifsiz toplum hədəfi ilə ortaya çıxan sosializm iflasa uğradı. Həm meydana çıxardığı "yeni siniflərlə" yenə ədalətsizliyə yol açdı, həm də toplumların və insanların bədbəxtliyinə səbəb oldu. Sonra da demokratik toplumların ortaya qoyduğu böyük güc qarşısında dayanmadı və çönüb getdi. İndi "Sosializm öldü, yaşasın Kapitalizm!" məntiqi yayılmaqdadır. Əslində isə Sosializm də ölmüşdür, Kapitalizm də... Amma gerçəkdə nə Sosialzm ölmüşdür, nə də Kapitalizm XIX yüz ildə ortaya çıxan və XX yüz ilə damğasını vuran biçimi ilə artıq Sosializmin də, Kapitalizmin də bir gerçəkliyi qalmamışdır. İndi yüksələn yenı çağ, "bilik çağıdır". Hökmran toplumlar isə bilik toplumlarıdır. Bu yeni dönəm qaçılmaz bir şəkildə yeni Sosializmi də gətirəcəkdir. İnsanlar yenə sosial ədalət çağırışından başlayaraq ideologiyalar yaradacaq və artıq pul-para gücünə deyil, bilik gücünə arxalanan kapitalist hökmranlıqları meydana çıxaracaqdır. Artıq bu nöqtədə biliklə hərəkət etməyimizin vacibliyinin dosdoğru cizgisinin ip ucu vardır. Yeni tanışlığa başladığımız bilik çağına (dövrü) girərkən yoxsulluğu aradan qaldıraraq, "qərib, fəqir, yetimlərə" sahib çıxaraq anlayışlar, qurumlar və quruluşlar yaratmalıyıq. Dövlət olaraq, könüllü qurukuşlar olaraq...



Bunun üçün "möhtac olduğumuz qüdrət mədəniyyətimizin köklərində vardır..." Bu anlamda toplumçuluq vaz keçilməz bir məqamdır. Təbii ki, tədris üçün vacib olan hər iş görülməlidir. Çox öyrətməli və doğru öyrədilməlidir. Eynən Yunis Əmrənin dediyi kimi "çalış, qazan, ye, yedir..."

## TÜRKCƏNİN ZƏNGİNLİKLƏRİ

"Egemenlik" ("üstünlük") sözü qazax və qırğız türklərində də Türkiyədə bilinən anlamda işlədilir. "Dilmanc" kəlməsi "tərcüməçi" deməkdir. Bu kəlməni nədən işlətməliyik?

Qazaxlar öncədən "uçak" üçün rus dilindən gəlmə "samalyot" kəlməsindən istifadə edirdilər. Türkiyədən "uçak" öyrəndilər və indi bi kəlməni işlədirlər. "Helikopterə" "vertolyot" deyirdilər. İndi "dikuçaq" deyirlər... Nədən biz bu kəlməni almayırıq?

"Qurum" kəlməsini uydurma sayıtdıq. Bu kəlmə kumuk türklərində eynən var və "müəssisə" yerinə işlədilir. Sevərək mənimsəməliyik...

Türkiyə xaricindəki türk dünyasının hər yerində "anahtar" kəlməsinə "açar" və ya "açkıc", "nərdivan"a "basqıc" deyilir. Bununla yanaşı ruscadan alınma çox sayda kəlmələr də var. "Başkana" prezi-

dent, "bakan"a "ministr" deyirlər... "Başkan" kəlməsini çox tez anlayıb sevdilər və "başxan" şəklində anlayırlar. "Bakan" isə çadır evin ana dirəklərinin adıdır.

Örnəklər çoxdur... "Düşüncəm və oyum başqa..." "Oy" sözü Şərq türkcələrində "fikir" deməkdir.

Türk dünyasındakı ləhcə, şivə və ağızlarda fərqlər vardır. Belə olması da təbiidir. Bəziləri ilə yüzlərcə ildən bəri bağlantı yoxdur. Son yetmiş il boyunca türk dünyası dəmir pərdə arxasında qaldı. Şərq türklərinə ruscadan, Qərb türklərinə Avropa dillərindən sözlər girdi.

İndi yenidən qarışmaq, qaynaşmaq zamanı gəldi.

Ləhcələrimizin bir az dəyişməsinə və daha çox inkişaf etməsinə razı olacağıq. Ləhcələrimizi bir-birinə yaxınlaşdırmaq üçün öncə sözlərin məna birliyini saxlayacağıq. Əhməd Yasəvi Universiteti belə bir qurum kimi yaradılmışdır.

Bir-birimizdən sözlər alıb verməliyik. Türk dilində kök əsasını birinci, əsas saymaqla yanaşı, ortaq xarici sözləri də qənimət bilməliyik.

Türk dünyasının ortaq televiziyası olaraq, düşünülən Türk Avrasiya kanalı da bu sahədə çox iş görməlidir.



Türkdilli dövlət başçılarının Birinci Zirvə toplantısında Ə.Elçibəy türkcənin Birləşmiş Millətlər Təşkilatının dilləri arasına girməsi təklifini irəli sürərkən, Nursultan Nazarbayev haqlı olaraq başqa bir məsələyə də diqqəti cəlb etmişdir: "Görürük ki, dilimiz bir olduğu halda çevirmələrlə (tərcümə ilə) anlaşa bilirik. Öncə bu anlaşma məsələsini çözməliyik..."

## ƏHMƏD YASƏVİ VƏ DİLİMİZ

Əhməd Yasəvi ilk Türk İslam alimi olaraq türklərə İslamı və dini anlatmaq üçün farscanı çox yaxşı bilməsinə baxmayaraq, "Hikmətlər"ini türkcə yazdı, türkcə söylədi. "Hikmətlər" türk dünyasının hər yerinə yayıldı. Beləcə, türk dili canlandı. Yasəvinin yolu ilə gedənlər də türkcə söylədilər:

"Sevirlər alimlər Türkün dilini,
Ərənlərdən eşitsən açar könül elini,
Ayət, hədis anlamı türkcə olsa duyarlar.
Anlamına varanlar başlarını əyib uyarlar..."

Bu şerin yazıldığı gündən bu yana doqquz yüz il keçdi. Dövr Böyük Səlcuqlu dövlətinin türk dünyasını idarə etdiyi dövr idi. Xaqan Sultan Səncər idi. Dövlət türk dövləti idi. Nə yazıq ki, millətin böyükləri, alimləri türkcəni kiçik görürdülər. Farsa yazıb söyləməyi mərifət sayırdılar. Bu vəziyyət iki səbəbdən üzüntülü idi. Türkcədən başqa dil bilməyən türk xalqları arasında biliyin (savadın) yayılması çətinləşir və gözəl dilimizin inkişaf etmək imkanları məhdudlaşırdı. Üçüncü təhlükə də bəzi türk toplumlarının türkcəni unudub farsca danışmaq, ünsiyyət qurmaq halına gəlməsi idi. Bu gün Əfqanıstanda yaşayan Xəzəranlar üçün türklük artıq uzaq bir xatirədən



ibarətdir. Onlar ana dili farsca olan bir topluluq olaraq Türklükdən qopmuşlar.

İlk dəfə Türk dilində təsavüf şerlər yazaraq dinin gerçəklərini türklərə öz dilində anladan Əhməd Yasəvi olmuşdur. Amma o da məlumdur ki, onun müasiri olan elm adamları Ə.Yasəvinin bu halını bəyənməmiş və qınamışlar. Böyük pir onlara belə cavab vermişdir: **"Alimlər, yəni bilik adamları bu türk dilini bəyənməsələr də ariflər, yəni bilənlər onun könül ölkələrini açan gözəlliklərini bilirlər. Ayət və hədislərin anlamı türkcə olursa, anlaşılır və ona uyğun olaraq davranırlar".**

Əhməd Yasəvi atamızın başladığı bu iş, Allaha şükürlər olsun ki, baş tutmuş və onun yolu ilə gedənlər türkcəni ədəbi dil olaraq diriltmiş və yaymışlar.

Əhməd Yasəvinin Anadoluya və Avropaya göndərdiyi bir böyük xalifəsi vardı. Sarı Saltuk Hacı Bektaş Vəlinin yoldaşıdır, yardımçısıdır. Sarı Saltukun da böyük xalifəsi vardı. Tapdıq Əmrə... Tapdıq Əmrənin bir böyük tələbəsi vardı. Yunis Əmrə! Bunun üçün Əhməd Yasəvi "Eşqin qıldı şeyda məni" derkən, Yunis Əmrə də "Eşqin qıldı məndən məni..." deyir.

Anlaşılır ki, Əhməd Yasəvi olmasaydı Yunis Əmrə, Füzuli, Xətai, Nəsimi, Məhtimqulu, Əlişir Nəvai, Aşıq Veysəl, Cambul Ata olmazdı. Yəni

Türk-İslam Ədəbiyyatı olmazdı. Biz, sadəcə, İslam olmağımızı deyil, İslamı doğru anlamamızı, dilimizin yayılmasını, zənginliyini və diriliyini böyük ölçüdə türk dünyasının ortaq atası Əhməd Yasəviyə borcluyuq...

## ATATÜRK VƏ İSLAM

1990-cı ildə Aşqabada ilk səfərim idi. Aşqabad Türkmənistanın paytaxtıdır. Rus istilasına qarşı ən kəskin və amansız müqavimət göstərən bir türk topluluğudur. Rus istilasından öncə də bütün Türküstanın ən dindar xalqı türkmənlərdir. İslam mədəniyyətinin ikinci doğuşunun coğrafiyası olan Uluğ Türküstanının bir parçasıdır Türkmənistan. O dönəmin mədəniyyət naziri Aşmurad bəylə paytaxtın görməli yerlərini gəzdik. "Bir də məscid görmək istəyirəm" dedim. Ev sahibi donub qaldı. "Varmı?" - deyə soruşdum. "Yox ki..." - deyə, cavab verdi.

Bu hadisəni konfranslarda, söhbətlərdə Atatürkün müxaliflərinə çox anlatdım. Dedim ki, əgər Atatürk və onun mücadiləsi olmasaydı, Yunanıstan və digər həvəslilər ölkəmizi parçalasaydı, əcəba, bizim halımız fərqlimi olurdu?"

Azərbaycanın Ermənistan qarşısında torpaqlarının yüzdə iyirmisini qeyd etməsinə yol açan məğlubiyyətin səbəbini bəziləri Azərbaycan türklərinin



"yetərincə igid olmamasına" bağlayırlar. Xeyr! Gerçək belə deyil. Azərbaycan türkləri yetərindən də artıq igiddirlər. Bunu 1990-cı ilin 20 yanvarında tanklara qarşı yalın əllə çıxaraq sübut etmişlər. Azərbaycanın çatışmazlığı nizami bir ordunu qura bilən yetişmiş zabit kadrlarının olmaması idi. Ən önəmlisi isə bi kadrlara başçılıq edə bilən bir "Mustafa Kamal"ların olmaması idi. Ermənistanın gücü isə "böyük bir nizami ordunun" planlı dəstəyi idi.

Həqiqəti bilməliyik. Əgər istiqlal savaşında Osmanlıdan qalan yetişmiş, təcrübəli və millətçi zabit kadrlarımız və onları təşkilatlandırıb nizami orduya yerləşdirən dahi Mustafa Kamal olmasaydı halımız xarabdı...

Mustafa Kamalı sevərək Atatürkə qarşı olanlara gəlincə, onlara da veriləcək cavab çox açıq: "Atatürk Osmanlını son dönəmlərindəki xəstəliklərdən qurtarmaq və sağlam təməl üzərində bir Türkiyə Cümhuriyyəti qurmaq istədi. İstədi ki, bu Türkiyənin təməllərindən millilik, elm ölkələri təməl yol göstəriciləri olsun.

Atatürk İslama qarşı çıxırdımı? Xeyr, Atatürk İslamın istismarına, müasirləşməsinin və inkişafının önünə əngəl halına gətirilməsinə qarşıydı. Atatürkün üç tənlikli bir müsəlman olduğunu göstərən bir çox dəlil vardır. Atatürk deyir ki, **"O, yəni Hz.Məhəmməd, Allahın birinci və ən böyük quludur. Onun**

**izi ilə bu gün milyonlarca insan yürüyür. Mənim, sənin adın silinir, fəqət O sonuna qədər O ölümsüzdür...”**

Məşhurlardan biri Atatürkün gözünə girmək üçün bir İslam düşməni tərəfindən İslam və Həzrət Məhəmməd əleyhinə yazılmış bir əsəri türkcəyə tərcümə edib fikrini öyrənmək məqsədilə Atatürkə ərz edir. Atatürk tərcüməni araşdırmaq, incələmək üçün öncə Şəmsəddin Günaltaya verir. Şəmsəddin bəy tərcüməni incələdikdən sonra Atatürkün hüzuruna çıxır. Atatürk o sırada dönəmin Baş naziri olan İsmət Paşa ilə burlikdə önündəki bir xəritəyə əyilərək onu incələməkdədir. Şəmsəddin bəyin gəldiyini görən Atatürk başını xəritədən qaldıraraq: **“Kitabı tədqiq etdinizmi? Fikriniz nədir?”** Şəmsəddin bəy tərcüməni Atatürkün önünə qoyaraq: **“Ələ alınacaq bir şey deyil. Bir faciə, Paşam!..”** deyə, sözünü tamamlamağa imkan tapmamış, Atatürk oturduğu yerdən sıçrayaraq, qızğın bir şəkildə İsmət Paşaya dönərək: **“Bu cızmaqaranı yığışdırın və tərcümə edən bəyi isə dövlət qulluğunda bir daha çalışmamaq üzrə hökumət qapısından uzaqlaşdırın”** deyir.

Atatürk Şəmsəddin bəyə bir az öncə üzərində çalışmaqda olduğu xəritəni göstərir: “Bu xəritə Həzrət Məhəmmədin Bədir savaşını addım-addım təqib edən əllə çəkilmiş bir xəritədir. Həzrət Məhəmmədin



Peyğəmbərliyinə olduğu kimi, Onun əsgəri dühasına da heyran olan Atatürk Bədr qalibini göylərə qaldıraraq, həyəcanlı bir şəkildə **“Onun Haqq Peyğəmbəri olduğuna şübhə edənlər xəritəyə baxsınlar və Bədr dastanını oxusunlar. Onun Peyğəmbərliyinin ən qüvvətli dəlili məhz bu savaşdır!..”** deyir.

Dostum Rza Səlimbaşoğlu şahidi olduğu bir olayı anlatdı. Belçikada Din müşaviri kimi dövlət qulluğunda olarkən, bir yurddaşımız özündən bir-iki yaş böyük olan belçikalı bir xanımla birlikdə Rza bəyin yanına gəlir. Yurddaşımız evlənmək üçün gəldiklərini, ayrıca belçikalı xanımın da müsəlman olmaq istədiyini və bununla bağlı məlumat almaq istədiyini söyləyir. Sonrasını Rza bəy belə anladır: **“Müsəlman olmaq üçün gələn bir çox qeyri-müslimdən fərqli olaraq, bu belçikalı xanım Fatihə və bir neçə surəni əzbərləmişdi. Müsəlman olmaq üçün gərəkən bütün işləri tamamladıq. Belçikalı xanım müsəlman oldu. Daha sonra söhbət əsnasında bir müsəlman kişisinin bir xristian qadınla evlənəcəyini, amma bir müsəlman qadının bir xristian kişi ilə evlənə bilməyəcəyini söylədim. Bunu eşidən yurddaşımız kədərləndi:**

- **İndi mən nə edəcəyəm?**
- **Nə oldu ki?..**

**İndi mənim nişanlım müsəlman oldu. Bir müsəlman qadını bir xristian kişisi ilə evlənə bilməz deyirsiniz. Mən izmirli bir yunanam...”**

Rza bəy başına gələn bu olayın həyatında çox təsirli hadisələrdən biri olduğunu söylədi və əlavə etdi: **“Bu olaydan sonra Atatürkü və mücadiləsinin dəyərini bir daha anladım...”**

- Bir əlaqəsi varmı?
- Əlaqəsi o qədər çox ki...

Rza bəy yunan əsilli yurddaşımıza: **“Namaz surələrini haradan öyrənib, üstəlik bu belçikalı xanıma da öyrətdin?”** - deyə, soruşanda: **Mən müsəlman uşaqları ilə yoldaşlıq edirdim. Namaz surələrini də onlardan öyrəndim”** - deyə, yurddaşımız cavab verir... Ay-uyduzlu bayrağın altında, azan səsinin dalğa-dalğa yayıldığı bir toplumun nemətlərindən yararlanmışdı yunan əsili yurddaşımız...

Bu ömür hekayəsinin sonunu maraq edirsizsə, nəzərinizə çatdırım ki, yunan əsilli yurddaşımız da müsəlman olur və beləcə bu məsələ də çözülür.

Bir yenə

Atatürkə söz atan, dil uzadan bir qisim özünü bilməyənlərin anlamadığı bir gerçəkli artıq ortadadır. Atatürk və onun məsləkdaşları olmasaydı, Türkiyə coğrafiyasında yunan əsilli yurddaşlarımıza öz istəkləri ilə namaz surələrini əzbərlədəcək bir ortaq olurdumu? Dini din olmaqdan çıxarıb, ideoloji qovğa maşını halına gətirənlər və dini siyasətə sürükləyənlər təbii ki, bu işdəki dərin hikməti qavraya bilməzlər.



Atatürk inanclı bir müsəlmandır. Ancaq dinin istismarına və inkişafının önünə bir əngəl olaraq çıxarılmasına qarşı idi. Dinin, insanın dərinliklərindəki sorumların qarşılığı olmaqdan çıxarılıb “nizələrin ucundakı Quran səhifələri” halına gətirilməsinə qarşı çıxırdı.

## PAKİSTAN, BANQLADEŞ VƏ ATATÜRK

“İşte, qəhrəmanlar doğan ananın
Qorxusuz oğlu!
Zəfərlər qazanan qəhrəman qardaş
Yanıqlı bir səsi dinlə.
Tətik ol, tətik ol, tətik ol, qardaş!
Sən Kamal,
Xariqələr yaratdın, qardaş...
Xariqələr yaratdın sən, Kamal qardaş!..”

**(sətri tərcümə)**

Bu sətirlər 300 misradan ibarət bir şerin nəqarətidir. Müəllifi Hadı Hazrul İslamdır. Benqal dilinin ən böyük söz ustadlarındandır. Mustafa Kamal Ata-

türkün böyük uğurlarından təsirlənərək yazıb bu şeri... Daha sonra bu şer teatr tamaşası halına gətirilib, oratoriyası hazırlanıb. Bu şerdən söz düşəndə Banqladeşin Baş naziri Həsənə xanım şeri bəstəsi ilə zümzümə etməyə başlayanda öyrənirik ki, məktəblərdə öyrədilən "Kamal qardaş" şerini Banqladeşdə hər kəs bilir.

Həsənə xanım deyir ki, mənim qardaşımın adı da Kamaldır.

Banqladeşin paytaxtı Dəqqər şəhərinin ən böyük küçəsinin adı Kamal Atatürk küçəsidir. Getdiyimiz Çitekonq şəhərinin ən böyük küçəsi də Mustafa Kamalın adını daşıyır. Bir sözlə, Banqladeş Respublikasında Atatürk adını hamı həyəcanla qarşılayır.

Eyni vəziyyət Pakistanda da var. Atatürk onlar üçün "millətin müstəqilliyi, milli köklərə bağlılıq və müasir dünyanın içində olmaq" anlamına gəlir.

Hər millətin öz şərtlərinin varlığı bir gerçəkdir. Atatürk məfhumunun da Türkiyədə, Pakistanda və Banqladeşdə fərqli şəkildə qavranılması, başa düşülməsi qaçılmazdır. Pakistan və Banqladeşin yolları da bir-birindən olduqca ayrı. Banqladeşdə dil və mədəniyyət ön plana çəkilir. Pakistanda isə din məsələsinə üstünlük verilir. Nobel mükafatını qazanan ilk müsəlman aliminin pakistanlı professor Əbdülsalam olduğunu xatırlayınca Pakistanın bu anlamda bizdən irəlidə olduğu düşünülə bilir.



Atatürk mübaliğəsiz başqa ölkələrdə də örnək ola biləcək bir öndərdir. Amma hər şeydən öncə Türkün Atasıdır!

**"Cümhuriyyətimizin təməli türk qəhrəmanlığı və yüksək türk kültürüdür"** sözləri Atatürkündür.

İslamı və Uca Elçini öyən sözlər də onundur.

İslamın yanlış yozularaq, inkişafının önündə əngəl kimi göstərilməsinə qarşı tövsiyələr də Onundur.

**"Həyatda ən həqiqi mürşid elmdir** və **"Mənim yolum ağıl və elm yoludur"** deyərək, doğru yolu göstərən də Atatürkdür.

Biz deyirik ki, Atatürk dühası **"köklərindən qopmadan, ağıl və elm yoluyla dövrü aşmaq"** düşüncəsinin adıdır...

## İNSAN SÜLEYMAN DƏMİRƏL

Möhtərəm Prezidentimizlə Pakistan və Banqladeşdə bir həftə səfərdə olduq. Banqladeşdə Fətulla Xocanın mənəvi uzaqgörənliyi ilə gerçəkləşdirilən məktəblər zincirinin bir həlqəsinin açılış mərasimində iştirak etdik. Türk Benqal Ümid Kolleci Avrasiya coğrafiyasına yayılmış 250 türk liseyindən birisi idi...

Ümid Kollecinin gənc riyaziyyatçı tələbəsi Dəqqərdə çox yayılmış üçtəkərli velosiped taksilərinin birində yol qəzasının qurbanı olmuş və ayağının biri kəsilmişdi. Gənc tələbə yaralı və xəstə idi. Məktəbin müdiri vəziyyəti bildirincə hörmətli Prezidentə dərhal gənc tələbənin təyyarə ilə Türkiyəyə aparılması barədə göstəriş verdi. Ancaq möhtərəm Prezident bununla da kifayətlənmədi. Uzaq səfərlərdə ehtiyac olur deyə, özü də xanımı üçün ayrılan özəl yataq bölümünün bu tələbəyə verilməsini tapşırdı.

Möhtərəm Prezident Gümrah olmasına baxmayaraq, yaşı artıq 70-i keçmişdir. Səfərimiz yerə enmədən səkkiz saat yarım çəkdi. Doğrusu, insanın rahat bir yatağa çox ehtiyac duyduğu anlar olur. Belə uzun səfərlərdə xeyirxah olmaq çətin deyil. Maldan, puldan yoxsullara yardım etmək də o qədər çətin deyil. Amma özünün can rahatlığından bir yaralı



gəncin rahatlığı naminə vaz keçmək böyük ruhların borcudur.

Çitekonqda qaldığımız bir neçə saat ərzində Prezident sürəkli olaraq yaralı tələbənin durumunu xəbər aldı və təyyarəyə mindikdən sonra tez-tez xəstəni ziyarət etdi. Ağlıma böyük Yunisin misraları gəldi:

Bir xəstəyə vardın isə,
Bir udum su verdin isə
Yarın sənə qarşı gələ
Haqq şərabın içmiş kimi...

Təyyarədə yol yoldaşlarımızla bu olayla bağlı söhbət etdik, hörmətli Baş nazirə minnətdarlığımızı bildirdik. Ankara valisi Ərdoğan Şahinoğlu 1989-cu ildə ABŞ-da ürəyindən cərrahiyyə əməliyyatı olduğunu və hörmətli Dəmirəlin telefonla onu arayıb "keçmiş olsun" dediyini, bunun ona mənəvi güc verdiyini söylədi. Mən də kiçik bir xatırlatma verdim.

1982-ci il 12 sentyabrdan sonrsa tutuldum. Daha sonra buraxıldım və suçsuz olduğum sübuta yetirildi. Həbsdən çıxandan sonra aldığım ilk "keçmiş olsun" məktubu hörmətli Dəmirəldən gəlmişdi.

Möhtərəm Prezident Çitekonq bələdiyyə sədrinin və banqladeşli fəxri Türkiyə konsulunun adını və soyadını olduğu kimi xatırlayırdı. Bu qeyri-adi, fövqal özəlliyini bilməklə yanaşı yenə də çaşdım və so-

ruşdum: "İnsanların adlarını əzbərləmək üçün özəl bir üsulunuz varmı?"

Möhtərəm Prezident: "Xeyr" cavabını verdi: "Yadımda qalır..."

Beləcə, insan Dəmirəlin özünəməxsusluğundan bir neçə örnək...

Görünür, Süleyman Dəmirəl olmaq Prezident olmaqdan daha zor!

## ALPARSLAN TÜRKEŞ

1960-cı ildən öncə bir lisey tələbəsi idim. "Orkin", "Böyük Doğu", "Toprak", "Türk Yurdu" kimi dərgiləri oxuyur və özümü turançı sanırdım. Bütün bu dərgiləri oxuyurdum və siyasi dünyagörüşüm atamın təsiri ilə formalaşmışdı. Atam çılğın bir şəkildə Adnan Menderesi, Demokratik Partiyanı və Millətçi sağ görüşlərin tərəfini saxlayırdı.

27 may günü, nədən bilmirəm, erkən oyandım. Atam radionun üstünü kəsdirmişdi, Demokrat Partiyanın iqtidardan devrildiyini, "Darbeçi"lərin hakimiyyəti ələ keçirdiyini elan edən xəbərlər verilirdi. Qızğındı, üzgündü və çox sərt sözlər söyləyirdi. Bu üzüntüsü və narahatlığı Milli Birlik Komitəsinin üzvlərinin adları açıqlanana qədər sürdü. Milli Birlik Komitəsinin içində hörmətli Alparslan Türkeşin də olduğunu duyunca rahatladı. Onu 1944-cü ilin "Turançılıq Davası"ndan xatırlayır və Milli Birlik Komitəsinin içində millətin bir təminatçısı (təmsilçisi) kimi görürdü.



Atam yanılmamışdı. Hörmətli A.Türkeş 27 may çevrilişini Demokrat Partiyanın düşmənlərinin "qisas almaq maşını" olmaqdan qurtarıb ölkənin problemlərini çözmək fürsəti halına gətirməyə çalışırdı. Milliyyətçi tutumu, unudulmayan 1944-cü il olayları, təbii ki, onu millətçilərin lideri halına gətirmişdi. Ancaq 13 noyabr 1960-cı il hadisələri onun yolunu kəsdi, 13 yoldaşı ilə birlikdə ölkənin xaricinə sürgün edildi.

### Taleyimiz yön verməyə çalışdı

1963-cü ildə sürgündən qayıtdıqdan sonra qaldığı yerdən demokratik üsullarla yenidən millətinin taleyinə (qədərinə) yön vermək uğrunda mücadiləsini sürdürdü. Öncə "Hüzür və İnkişaf dərnəyi"ni qurdu. Sonra 1965-ci ildə düzənlənən bir mərasimlə "Cümhuriyyətçi kəndli Millət Partiyası"na keçdi. Eyni gündə mərasimlərlə həmin partiyaya qatılanlardan biri də mən idim. CKMP Gənclik Qolları Baş Bakanı seçildim və iki il ərzində həmin qulluqda oldum. Daha sonra kaymakamlıq qulluğuna başlayınca siyasətdən ayrıldım. 1978-ci ildə Gömrük Nazirliyində vəzifədən çıxdıqdan sonra 3 il Milliyyətçi Hərəkat

Partiyasında çalışdım. 12 sentyabr 1982-ci il çevrilişindən sonra isə tutularaq 33 ay "dövlətin güvənliyi" altında oldum. Bu 33 ayın iki ilində möhtərəm Türkeşlə eyni cəza evində birlikdə olduq.

Məqsədim nə mərhum Türkeşin həyatını anlatmaqdır, nə də öz həyatımı. Söyləmək istədiyim, mərhumu yaxından tanımaq fürsəti tapanlardan biri olduğumu, onun son dərəcə kamil bir ziyalı, elmli, savadlı bir Türk milliyyətçisi və dəyərli bir dövlət xadimi olduğunu çatdırmaqdır. Mərhum Türkeş güman edildiyinin tam əksinə olaraq insanlarla münasibətində həddindən artıq nəcib və həddindən artıq xeyirxah idi.

Mərhum Alparslan Türkeş başında durduğu partiyalar iqtidara gəlmədi, amma minlərcə insanın müəllimi və bir türk ziyalısı olaraq onların yetişməsinə xidmət etdi. Bu gün həmin yetişən insanların bir çoxu həmin partiyanın içərisində olmasalar da mərhum Türkeşə olan sevgi və hörmətləri hər zaman davam etmişdir. Türkiyədə bir çox insanın yetişməsində, milli savad qazanmasında və türk milliyətçiliyinin müasirliyə qovuşmasında ən böyük xidməti məhz mərhum Türkeş yerinə yetirmişdir.



## YENİ TURAN SƏFƏRİ

1982-ci ildə möhtərəm Dəmirəlin Baş nazir olduğu dövrdə Türk Respublikalarına səfərə çıxmışdıq. Təyyarədə mərhumun ən ön sırada oturduğunu görüncə çox həyəcanlandım. 1944-cü ildə turançılıq ideyalarına görə il yarım həbs olunan və işgəncələrə məruz qalan mərhum Alparslan Türkeş 48 il sonra Turan səfərinə çıxırdı. Onunla təyyarədə söhbət etdik. Suallar verdi, mən də cavab verməyə çalışdım. Bu səfərin kefini çıxarmaq, ləzzətini dadmaq hamıdan çox onun haqqı idi. Çünki mərhum Türkeş turançılıq "suçu" ilə həbsdə yatan, amma azadlığa çıxdıqdan sonra da həyatı boyunca dünya türklüyünü yaymağa çalışan bir insandı. Türk dünyası məsələsində Türkiyədə türkçülük elmini meydana gətirmək yolunda çox uzun illərdən bəri mücadilə edən bir fikir adamı idi. Bu gün onun ömrünü sərf etdiyi "bütün dünya türklərinin güc birliyi yaratması" fikri yolunda böyük məsafələr qət edilmişdir. Özü isə bu gözəl səfərləri sağlığında görmək bəxtiyarlığına qovuşan bir insandır.

Mərhum Alparslan Türkeş ilə uzun illər birlikdə çalışdım. Birlikdə siyasətdə olduğum və olmadığım dönəmlərdə ona olan hədsiz hörmətim heç zaman azalmadı. Mərhum Türkeşin mənim yetişməyimdə çox böyük əməyi vardır. Mərhum Türkeşin vəfatını

Özbəkistanın paytaxtı Daşkənddə səfirliyimizdən öyrəndim. Başçımız, böyüyümüz mərhum Alparslan Türkeşə Allahdan rəhmət diləyir və bütün dünya türkünün başı sağ olsun deyirəm...



## FÜZULİ VƏ YEDDİ SÖZ

Böyük şairimiz Füzulinin anadan olmasının 500-cü ildönümü münasibəti ilə keçirilən toplantılara qatıldım. Möhtərəm Prezident Heydər Əliyevin və Azərbaycanın dövlət adamlarının, Türkmənistandan, Özbəkistandan, Qazaxıstandan, Qırğızıstandan, Başqırdıstandan, Tuva və Xakas Cümhuriyyətindən, Dağıstan Cümhuriyyətindən, Avropa türklərindən, Rusiya Federasiyasından, Gürcüstandan, İrandan gələn Məclis Sədrinin, nasir və nasir müavinlərinin timsalında dövlət adamlarının, çox sayda kültür və sənət adamlarının qatıldığı böyük mərasimdə diqqəti çəkən bir çıxış etdim. Türkiyə adına öyünərək söyləməliyəm ki, Prezidentdən və YUNESKO-nun sədrindən sonra rəsmi protokolda üçüncü sırada olduq. Ancaq əslində isə birinci sırada idik.

Çıxışlar yeddi dəqiqə ilə məhdudlaşdırılmışdır. Nümunə olsun deyə, yeddi dəqiqə çəkən bir çıxış etdim və yeddi söz söylədim.

Cümhuriyyət Başqanımız möhtərəm Süleyman Dəmirəlin təbrik məktubunu oxuduğum zaman böyük salonda alqışlar bomba kimi partladı...

Toplantıda söylədiyim yeddi sözü sizlərlə paylaşmaq istəyirəm.

**Birinci söz.** Türkiyənin səlahiyyət sahiblərinin və xalqının Azərbaycana salam və sevgiləri.

**İkinci söz.** Türkiyə ilə Ermənistan arasındakı Qars qapısının nə zaman açılacağı ilə bağlı suallara cavab gözlənilirdi. "Açıla bilir. Təbii, Füzuli babamızdan soruşarıq. O, izn verərsə, açarıq," - dedim. "Qars qapısının açarı bizdə deyil. O açar Azərbaycan xalqının əlindədir".

**Üçüncü sözüm** odur ki, Allah Füzuliyə rəhmət eləsin, yatdığı torpaq nurla dolsun. Amma Füzuli bir yandan sağdır, diridir. Oğulları ona sahib çıxarsa, şerləri oxunduqca, muğamlarda yad edildikcə, Üzeyir Hacıbəyovun ölməz operası var olduqca, Füzuli də var olacaqdır.

**Dördüncü sözüm,** Türkiyədə orta məktəbi bitirən kimə desəniz ki, "Məni candan usandırdı, cəfadan yar usanmazmı?" Sizə belə cavab verərlər: "Fələklər yandı ahımdan, muradım şəmi yanmazmı?" Yəni Füzuli... Azərbaycanın dahi şairidir. Azərbaycan türkcəsiylə yazmışdır. Amma madam ki, dili Türkcədir, özü Türk oğludur, o zaman eyni zamanda o bütün Türk dünyasınındır. Bugünkü gün hamımız deyə bilərik ki, "Muradımızın şamı da yanmışdır, ayı da, ulduzu da görünmüşdür. Günəşi də doğmuşdur..." Çünki türk oğulları və qızları Avropadan, Türkiyədən, Qafqazdan, Orta Asiyadan, Uraldan, Sibirdən gəlib Bakıda Füzuli toruna qatılıblar və Dədəm Qorqud kimi toy toyladılar, soy soyladılar. TÜRKSOY-un toplantısını keçirdilər. Türk dünyasının yazarları, şairləri toplandılar, qurultaylar keçirdilər, şer mərasimləri təşkil etdilər. Muradımızın günəşi bu deyildimi?



**Beşinci sözüm.** Eşq olsun Azərbaycana! Eşq olsun möhtərəm Heydər Əliyevə! Eşq olsun Azərbaycan rəhbərlərinə! Füzulinin qədrini bildikləri üçün və bir həftə içində dörd böyük toplantını müvəffəqiyyətlə gerçəkləşdirdikləri üçün...

**Altıncı sözüm.** Füzulinin sözü: "Elmsiz şer əsası yox divar olur. Əsassız divar qayətdə bietibar olur". Endi ki, elmi inkişaf dövründə də yolumuza Füzuli işıq saldı. Həndəsədə, riyaziyyatda, təbabətdə, dini elmlərdə. Deməli, gənclərimiz şer yazanda da onun elmini bilib yazmalıdırlar.

**Yeddinci sözüm.** Füzulinin şerləri dörd əsr əvvəl, yüz il əvvəl, öncə də bütün Türk dünyasında oxunur, anlaşılır. Füzuli bizi bu toyda birləşdirdi. Füzulinin ruhu da bizə birlik yolunu göstərsin. Allah Azərbaycanı daxili (mənəvi) birlikdən ayırmasın. Allah bütün Türk dünyasına birlik içində dirilik versin. Füzulinin ruhu şad olsun. Yaşasın Füzuli! Yaşasın ki, Azərbaycan Cümhuriyyəti də yaşasın!

## NİZAMİ VƏ EŞQ

Nizamini oxudunuzmu? Doğrudan, oxumadınızmı? "Xosrov və Şirin"in son bölümlərindən anlatmaq istəyirəm. Nizamini və eşqi...

Hekayə çox uzundur. Xosrov İran padşahıdır və Şirinə aşiq olur. Şirinin bəxtinə bax ki, öncə aşiq olduğu Fərhadın dağı çapdıqdan sonra ölümünə şahid olur və sonra da Xosrovun eşqinə razılıq verir. Uzun məcaralardan sonra aşiqlər qovuşur. Ancaq bu vüsal gecəsində sarayın pəncərəsindən süzülən bir "can alıcısı" aşiqlərin otağına girməyi bacarır və xəncəri Şirinin qoynunda uyuyan Xosrovun köksünə saplayır. Xosrov amansız acılar içində oyanır. Amma qoynunda Şirinin uyuduğunu görüncə onu oyandırmağa qıymır. Qanı su yerinə axarkən, canı candan çox su istəyi ilə yanar. Şirin oyanmasın deyə ona da dözür və ruhunu təslim edir.

Şirin oyanınca sarayın divarlarını yandırıb-yaxan bir fəryad qoparır. Bu arada atasının qatilini göndərən Xosrovun oğlu Şirinə xəbər göndərir. "Şirin dərd çəkməsin. Mənimlə evlənməyi qəbul etsə, onu kraliça elan edər, ona Xosrovun vermədiklərini verərəm". Şirin qəbul edər. Amma Xosrovun cənazəsini qaldırmaq üçün izn istər. Cənazənin qaldırıldığı gün Şirin ən gözəl libasını geyinər, bütün zinyət əşyalarını taxar, özünü bacardıqca çox gözəlləşdirər.



Sonra da tabutun çevrəsində dövrə vurmağa, yürüməyə başlar. Seyr edənlər "yazıq" derlər, "Şirin ağlını itirmiş. Bu şəkildə cənazə qaldırılırmı?"

Qəbristanlığa gələndə Şirin "bir az izn verin, Xosrovla yalnız qalmaq istəyirəm" deyir. Xosrovun kəfənini açar. Şirin Xosrovun ölümcül yaralandığı yerdən xəncəri köksünə saplar və öz qanını Xosrovun bədəninə axıtmaq istərmiş kimi yarasını Xosrovun yarasına yapışdırar. Xosrovun artıq soyumuş dodaqlarını öz dodaqları arasına alar.

"İki tən bir tən olur,
Qan qana qarışır,
Can cana qarışır,
İki ruh bir ruh olur..."

Və sonsuzluğa doğru axıb gedərlər. Şer budur! Nizamini doğrudanmı oxumadınız? Nizamini oxumadan eşq haqqında söz söyləmək, şer yazmaq doğrudurmu?

## HÜSEYN CAVİD

Hüseyn Cavid 24 oktyabr 1882-ci ildə Naxçıvanda doğuldu. İbtidai və orta təhsili Naxçıvan və Təbrizdə tamamladı. Bu arada klassik üslubda farsca və türkcə şerlər yazmağa başladı. 1903-cü ildə İstanbula gələrək İstanbul Universitetinin ədəbiyyat şöbəsinə qəbul olundu. İstanbulda olduğu illərdə tənzimat şairlərinin əsərlərini geniş şəkildə incələdi. Avropa, xüsusi ilə fransız ədəbiyyatını məhz İstanbulda öyrəndi. Yenə həmin illərdə "Gənc Türkçülər"lə tanış oldu. Onlarla sıx əlaqələr qurdu. Hüseyn Cavid İstanbulda təhsil aldığı illərdə Çar Rusiyasının müstəmləkə rejiminin əleyhinə şerlər yazdı.

1917-ci ildə bolşevik inqilabı ərəfəsində Naxçıvana geri dönən Hüseyn Cavid Azərbaycanın müxtəlif bölgələrində müəllimlik etdi. 1913-cü ildə "Keçmiş günlər" adlı ilk şer kitabı çap olundu.

Azərbaycan ədəbiyyatında ilk dram əsərlərini nəzmlə qələmə alan Hüseyn Cavid şerlərini yazarkən Türkiyə türkcəsindən istifadə etmişdir. 1919-1939-cu illər arasında Bakı şəhərində yaşayan Hüseyn Cavid şerlərində istifadə etdiyi dil ilə Azərbaycan türkcəsini və Türkiyə türkcəsini bir-birinə yaxınlaşdıraraq türkcənin bir dil olması yönündə böyük xidmət etmişdir.



Azərbaycanda bolşeviklər hakimiyyətə gəldikdən sonra böyük əzab-əziyyətlər görən Hüseyn Cavid Stalinin zülmündən qurtula bilməmiş və Sibirə sürgün edilmişdir. 1941-ci ildə elə sürgündə də ölmüşdür. Bəlkə də öldürülmüşdür.

1980-ci ildə Azərbaycanın o zamankı rəhbəri və bugünkü Prezidenti möhtərəm Heydər Əliyev tərəfindən Hüseyn Cavidin nəşi Sibirdən Naxçıvana gətirildi. 1981-ci ildə onun muzeyinin yanında təkrar dəfn edildi.

Hüseyn Cavid böyük şair və dramaturqdur. Millətinin birliyi yolunda verdiyi mücadilələrlə yanaşı xalqını da mücadiləyə sövq edən elmli və savadlı bir ziyalıdır.

Azərbaycan Prezidenti möhtərəm Heydər Əliyev Naxçıvanda bu böyük şairin xatirəsinə abidə ucaltmışdır. Bu gün də Naxçıvanda Hüseyn Cavidin xatirəsinə həsr olunmuş poeziya tədbirləri keçirilir.

## HEYDƏR ƏLİYEVİ XATIRLARKƏN...

10 may 1923-cü ildə doğuldu. Heydər Əliyev... Bir zamanlar Sovetlər Birliyinin əfsanəvi rəhbərlərindən idi. İndi müstəqil Azərbaycan Cümhuriyyətinin, xalqın böyük əksəriyyəti tərəfindən seçilmiş Prezidenti.

Möhtərəm Heydər Əliyev Azərbaycan Respublikasını əzmlə idarə edən, Azərbaycan torpaqlarının işğalını durduran və daxildə istiqlalı saxlayan nüfuzlu bir liderdir. Keçmişdə Sovetlər İttifaqı zamanında sistemin ən yüksək nöqtəsinə yüksəlməyi, Siyasi Büroya seçilməyi bacarmışdı. Qərb tədqiqatçılarının dediyi kimi yalnız "türk olduğu üçün" Sovet İttifaqının Baş katibi ola bilməmişdi.

Heydər Əliyev kommunizm zamanında 12 il Azərbaycana rəhbərlik etdi. Onun zamanında Bakının türk şəhəri olması gerçəkləşdi. Xalq Cəbhəsinin lideri Əbülfəz Elçibəyin otağında Atatürkün şəklinin yanında Heydər Əliyevin şəkli də vardı...

Dünya türkçülüyünün problemlərinə maraq göstərən insan kimi Heydər Əliyevin Sovetlər İttifaqındakı yüksəlişini maraqla izləyirdik. Andropovdan sonra Heydər Əliyevin Sovet İttifaqı rəhbərliyində başa keçməsi təbii görünürdü. Ancaq türk və müsəlman olması bunu əngəllədi. Bu gerçəyi Sovet İttifaqını öyrənən alimlər də dəfələrlə ifadə etmişlər.



Sovet sistemini yetərincə bilməyənlər sistemin içindəki hər bir kəsin kommunist olduğunu düşünürdü. Söz gəlişi, bir insan Kommunist Partiyasının üst qatlarına çıxmışsa, onun türk, ermani (haşa süfrədən - tərc.) və ya rus olmasının önəmi olmadığı sanılırdı. Gerçəkdə isə sistemin yaratmağa çalışdığı "sovet adamı" hədəfi bir boş xəyal olaraq qaldı. Əsl gerçək həyatın amansız gerçəyi "millət duyğusu" idi və onu əsla yox etmək mümkün deyildi. Əslində sistemin başında duranlar da bunu bilirdilər. Bu üzdən də Rus-Sovet dövləti rus millətini birləşdirməyi, türk millətini isə bölüb yeni millətlər halına gətirməyi hədəfə almışdılar.

Sovet sisteminin rəhbərliyində qərar tutan milli azlıqlara mənsub şəxslər isə ən azından "kadr siyasətində və xidmət dağının zirvəsində" olarkən danışıqlarında gözləmə mövqeyi tutmalı olurdular. Ermənilərin güclü olduğu dönəmlərdə bugünkü Ermənistan sərhədləri cızılmış, birinci olaraq Naxçıvan və Azərbaycan arasındakı coğrafi əlaqə kəsilmiş, bugünkü durum ortaya çıxmışdır. Bunun əvəzində Heydər Əliyevin qüdrət qazandığı dönəmdə türk dünyası və daha çox Azərbaycan xidmət sahəsində böyük imkanlar qazanmışdır. Heydər Əliyev Azərbaycanı idarə etdiyi və Siyasi Büroda çalışdığı dönəmlərdə Bakı

şəhərində türk nüfuzunun çoxalmasını təmin etmiş, Azərbaycanın idarəçilik sistemində olan çoxsaylı ermənilər isə ixtisar etmişdir.

Yəni Sovet sisteminin içində türk əsilli insanların yüksəlişi və bəlli mövqelərə qalxması Türk millət üçün çox önəmli nəticələr vermişdir.

İndi bu siyasi oyunların nə qədər dərin köklərə bağlı olduğunu bilməyən insanlar Heydər Əliyevin Siyasi Büronun üzvü olduğunu, yaxud KQB generalı olmasını bir qüsur kimi söyləyirlər. Halbuki işə içindən baxdığında görünən gerçək çox fərqlidir. Sovet sisteminin içində irəli getmək və yüksəlmək istəyən hər kəs onun getdiyi yerlərə gedə bilmək üçün Kommunist Partiyasına girmək və sistem içində yüksəlmək istərdi. Yalnız fövqəl bacarığı olanlar üçün isə bu yollar açıqdır.

Sözgəlişi, bir daha 1960-cı illərdə sistemin çox ifrat olduğu dönəmlərdə Divan ədəbiyyatını və Füzulini tənqid edən türkiyəli bir yazara "Yel qayadan nə aparar" sərlövhəli cavab göndərən birinci türk millətçisi və günümüzün ən böyük şairlərindən birisi olan Bəxtiyar Vahabzadə də Kommunist Partiyasının üzvü idi. Heydər Əliyevin də, Bəxtiyar Vahabzadənin də Kommunist Partiyasından istefa etməsi 1990-cı il 20 yanvar faciəsindən sonra olmuşdur. Yenə türkçülüyündə və yaxşı düşüncə adamı olduğuna kimsənin şübhə etmədiyi sabiq Prezident Əbülfəz Əliyev (Elçibəy) də Kommunist Partiyasının üzvü olmuşdur. Amma onun həyatı boyunca türkçülük ideyasını daşıdığını bilirik...



Yəni işi yaxşı anlamaq, qavramaq lazımdır. Sovet sisteminin bəlkə də ən böyük səhvi burada idi. Rəsmən kommunist olan bir çox insan Kommunist Partiyasının ən yüksək nöqtələrinə çıxsa belə gerçəkdə, yəni həyatda kommunizmə inanmırdı. Belə olmasaydı, Kommunist Partiyasının rəhbəri olanların əliylə sistem kapitalizmə qaytarılmazdı ki... Yetmiş illik təcrübə milyonlarla insanın qanı və sağ qalanların bədbəxtliyi bahasına göstərmişdir ki, kommunizm kimi yabançı ideologiyalar həyatın qətiyyətli və sağlam qurumları qarşısında məğlubiyyətə məhkumdurlar. Milli duyğular kommunizm duyğularını üstələmişdir.

* * *

Cumhur başqanımız hörmətli Süleyman Dəmirəlin Azərbaycan Prezidentinin şərəfinə verdiyi ziyafətdə möhtərəm Heydər Əliyev şairanə bir nitq söylədi. Həmin nitqin bəzi məqamlarını sizinlə paylaşmaq istəyirəm.

O demişdir ki, **Türkiyə Şərqlə Qərbin birliyini gerçəkləşdirmiş bir ölkədir. Türkiyə öz dəyərlərini saxlayaraq dünyanın inkişafından yararlan-**

**mış, yüksək elm və texnolojiyə, çağdaş insanlıq dəyərlərinə çatmağı bacaran bir ölkədir. Türkiyə mətin addımlarla Mustafa Kamal Atatürkün yolu ilə irəliləyir və böyük gələcəyinə doğru yaxınlaşır. Demokratiyanın, söz və insan azadlığının (bərqərar) olduğu Türkiyə bizim üçün örnəkdir. Türkiyənin təcrübəsi bizim üçün bir örnəkdir. Azərbaycanda apardığımız islahatlarda da biz Türkiyənin təcrübəsindən yararlanırıq. Bizim üçün doğrusu da budur. Biz bütün dünyadan almalı olduğumuz gerçəkləri, doğru işi alırıq. Ancaq bizim üçün örnək Türkiyədir. Çünki biz Türkiyə ilə eyni milli və dini köklərə sahibik. Türkiyəyə hər dəfə ziyarət edəndə burada gördüklərimizi Azərbaycanda da uyğunlaşdırmağa çalışırıq və çalışacağıq da...**

**1918-ci ildə Azərbaycan da müstəqil olmuşdur. Ancaq bu uzun sürməmişdir. Biz yetmiş il boyunca öz tariximizin sahibi olmadıq. İndi qazandığımız müstəqilliyi qorumaq bizim üçün həyat qədər dəyərlidir. Biz bu yolla gedirik. Çoxlu çətinliklərimiz var. Amma bu çətinlikləri aşırıq və aşacağıq da...**

**Biz Türkiyə və Azərbaycan cümhuriyyətləri olaraq, biz Türkiyəyə həmişə belə baxdıq və belə baxmaqda da davam edəcəyik. Türkiyənin ağrıları bizim ağrılarımızdır, Türkiyənin sevincləri bizim sevinclərimizdir...**



Möhtərəm Heydər Əliyevin şərəfinə verilən ziyafətdə TRT-nin musiqi orkestri bir konsert verdi. Konsertin hamını həyəcanlandıran parçası "Onuncu il" marşı idi. Baxdım ki, Cumhur başqanımız hörmətli Süleyman Dəmirəl, Türkiyə Silahlı Qüvvələri Qərargahının Baş komandanı və ziyafətdə iştirak edən bir çox insan həmin marşı birlikdə oxuyurlar. Daha sonra onlara Azərbaycan Prezidenti Heydər Əliyev və Azərbaycanın nümayəndə heyəti də qoşuldu:

"Türkük, bütün başlardan
Üstün olan başlarıq.
Tarix öncəsi vardıq
Tarix sonrası varıq.

Türkük, cümhuriyyətin
Köksümüz tünc sipəri!
Türkə durmaq yaraşmaz,
Türk öndə, türk, irəli!
*Hey! Türk milləti sən nə böyüksən!*

## SALAM OLSUN BƏXTİYAR VAHABZADƏLƏRƏ!..

Bəxtiyar Vahabzadə ilə uzun söhbətimiz oldu. Azərbaycanın, bəlkə də türk dünyasının yaşayan ən böyük şairi ilə yenidən olub-keçənlərdən söz saldıq. Bəxtiyar bəyin "Gülüstan" poeması adlı bir əsəri var. Keçmiş dönəmdə, təzyiq altında olan dönəmdə, zülm və köləlik dönəmində yazılmış bir şer, bir parça oxudu həmin şerdən:

Min ləkə vurdular şərəfimizə,
Verdik,
Sahibimiz yenə "ver" dedi.
Çox yaxşı eləyib doğrudan bizə.
Biri "baran" dedi, biri "xar" dedi.
Bizi həm yedilər, həm də mindilər.
Amma arxamızca gileyləndilər...

Azərbaycanı iki yerə bölüb bir parçasını rusların qoyun sayaraq bütün zəngin sərvətlərini yedikdən sonra üstəlik Azərbaycandan gileyli, şikayətçi olması ilə bağlı bir şer parçası. Bu böyük dastan (poema) ortaya çıxar-çıxmaz 1962-ci ildə Bəxtiyar bəy universitetdəki müəllimlik işindən çıxarıldı və o, işsiz qaldı. İki il boyunca işsizlik davam etmişdir.



Bəxtiyar bəyi bu məsələ ilə bağlı bir də KQB-də dindirmişlər. O zaman KQB-nin rəhbərliyində Heydər Əliyev var idi. Yəni bugünkü Azərbaycanın Prezidenti Heydər Əliyev dindirmə zamanı bu şeri əzbərdən oxuyub Bəxtiyar bəydən "Nə demək istəyirsən?" deyə, soruşmuş. Bəxtiyar bəy cavab vermiş: "Şer pisdirmi?" Heydər bəy "Təbii ki, pisdir" demiş. Bunun ardınca Bəxtiyar bəy demiş ki, "Bəs pisdirsə, necə və nə üçün əzbərlədiniz?" Heydər Əliyevin, təbii ki, o zaman söyləyəcək bir sözü yox...

Bir neçə il öncə Bəxtiyar bəy Heydər Əliyevdən "Siz bu kommunizmə inanırdınızmı?" deyə xəbər almış, Heydər bəy isə bu sorğuya yuxarıdakı hadisəni xatırlatmış və soruşmuş: "Mən sənin ruslara və kommunizmə qarşı olduğunu bilmirdimmi?" Bəxtiyar bəy cavabında "Bilirdiniz". Heydər bəy: "Bunun üçün sənə bir zərər verdimmi?" Bəxtiyar bəy: "Xeyr!" Heydər bəy: "Bəs bunları bilə-bilə sənə kömək etdimmi?" Bəxtiyar bəyin cavabı qısa olmuşdur: "Bəli!"

Heydər Əliyev 1983-cü ildə Siyasi Büronun üzvü kimi Moskvaya getdikdən sonra Bəxtiyar bəyə Sovet İttifaqının ən böyük mükafatını verdirmişdir. Əslində dünyanın işi belədir... Və 70 illik Sovetlər İttifaqı budur. Türkiyədən baxanda bütün bu olub-keçən işləri anlamaq asan deyil. Amma işlərin dərinliyinə varanda anlaşılmayacaq bir durum yox...

Bir qərb yazarı belə deyir: "Əgər Heydər Əliyev türk olmasaydı, mütləq Sovet İttifaqının baş katibi olardı". Moskvada nəşr olunan bir rus qəzetində belə bir yazı çap olunmuşdu: "Heydər Əliyev namizədliyini irəli sürsəydi, Rusiya Federasiyasının prezidenti seçilərdi. Amma Heydər Əliyev Rusiya Federasiyasının prezidenti yox, kiçicik Naxçıvanın Ali Məclisinin sədri olmağa üstünlük verdi. Sonra isə tale onu Azərbaycan Prezidenti olmağı qismət etdi. Azərbaycan Heydər Əliyevi arayırdı. Tapdı. Uğurla da səlahiyyətlərini icra etdi.

Heydər Əliyev böyük bir varlıqdır. Hakimiyyət sənətində gerçək bir ulduzdur. Təbii olaraq, sovet sistemində tarazlığını qorumuş və ən yüksək zirvələrə gedib çıxmışdır. Oradan aldığı güclə öncə Azərbaycana, sonra isə digər türk respublikalarına yardım etmək qeyrətində olmuşdur. Bəxtiyar Vahabzadə kimi türkçü, turançı, milliyyətçi insanları müdafiə etməkdən, qorumaqdan çəkinməmişdir. Azərbaycanda bu gün Bakının əhalisinin əksəriyyəti türkdürsə, deməli, bunun gerçəkləşməsində ən böyük zəhmət Heydər Əliyevindir!

Dəyərli dostumuz Elçibəyin mücadilə etdiyi illərdə otağında iki şəkil vardı. Biri Atatürkün şəkli, digəri isə Heydər Əliyevin.

Bəxtiyar Vahabzadəyə gəlincə, o, ilğımlara uymadan sürəkli olaraq Azərbaycan milli kültürü, milli



müqaviməti, milli oyanışı üçün mücadilə vermişdir. Təbii ki, o da müəyyən tədbirlər tökürmüş, müxtəlif üsullara əl atırmış. Azərbaycanın dərdlərini yazmış, amma ünvanı "Kasablanka" kimi göstərmişdir. Yaxud başqa əzilən xalqlardan yazmışdır. Bəxtiyar bir yazısında "dünyaya özü qeyb olmuş, amma dili yaşayan; və ya əksinə özü dura-dura, dili yox edilməyə çalışılan xalqlar var" deyərək, cəzadan qurtulmağa çalışmışdır. Dindirilərkən "bu anlatdıqların bizə bənzəyir" deyincə, Bəxtiyar bəy demişdir: "Bunu mən söyləmirəm, Siz söyləyirsiniz!"

"Salam olsun, Bəxtiyar Vahabzadələrə!" deyərək, bu yazıma elə burdaca nöqtə qoyuram.

## MUXTAR AYEZOV

Muxtar Ayezov Qazaxıstan türklərinin mədəniyyət və elmi həyatında çox önəmli yeri olan böyük bir elm və sənət adamıdır. Zamanın sərt şərtləri içində Qazax xalqının tarixi, ədəbiyyatı dil və folklor baxımından dərin köklərə enmiş, milli kültürün həmin sahələrində gərgin araşdırmalar aparmışdır. Araşdırmaları asanlıqla anlaşılsın deyə tarixi əsərlər yazmış, elmi məqalələr, romanlar, hekayə və teatr əsərləri qələmə almışdır.

Rusiyanın 1884-cü ildə indiki Türkmənistanı işğal etməsi ilə tamamlanan Türküstan istilası Şərqi

türklər üçün milli müstəqillik hərəkatının sonu olmamışdır. Saysız silahlı üsyan və müqavimət hərəkatı ilə yanaşı ziyalıların (aydınların) yürütdüyü kültür və məslək hərəkatı rus müstəmləkəçiliyinə qarşı mücadiləni davam etdirmişdir. Bu çalxantılı dönəm Krımdan Azərbaycana, Anadoludan Şərqi Türküstana qədər bütün türk dünyasında ziyalıların zülmətli, böhranlı, bir-biri ilə üst-üstə düşən və ya dabandabana zidd olan düşüncələri arasında çırpındığı zamanlardır. Birinci Dünya müharibəsi və rus işğalı bu axtarış və çırpıntı dönəminin istinad nöqtəsini təşkil edir.

Muxtar Ayezov həmin nəslin təmsilçilərindən biridir. Sovet rejimi dönəmində çox çətin şərtlər içində yaşayıb yaratmışdır. Əsərlərində milli kültürü guya saxtalaşdırdığı üçün siyasi rejim tərəfindən təqsirləndirilmiş, dindirilmiş, Stalinin ziyalılara qarşı yürütdüyü mədəni inqilab hərəkatından həbsə qədər qurtula bilmişdir. "Xan Kene" adlı əsəri 1982-ci ildə çap olunmuşdur.

Anadan olmasının 100 illiyi - 1997-ci il YUNESKO tərəfindən AYEZOV ili kimi qəbul edilmişdir. Həmin il Qazaxıstanda əsərləri yenidən nəşr edilmiş və möhtəşəm bir proqramla yubiley şənlikləri keçirilmişdir.

Əsərləri yetmiş iki ölkədə nəşr olunan Muxtar Ayezov bütün dünyada tanınmasına baxmayaraq,



Türkiyədə tanınmır. İndiyə qədər ölkəmizdə heç bir əsəri çap olunmayıb. Əhməd Yasəvi Universitetinə Yardım Vəqfinin Bilgi Yayımları Qazaxıstanın böyük yazıçısı Muxtar Ayezovun əsərlərini təbliğ etməklə, yaymaqla bu boşluğu doldurdu.

Muxtar Ayezov kimdir? Qazaxıstan prezidenti Nursultan Nazarbayevin "Muxtar Ayezov haqqında məqalələr" adlı kitaba yazdığı ön sözündəki fikirləri Sizə çatdırmaq istəyirəm. Eyni zamanda, beləcə Nursultan Nazarbayevi və Muxtar Ayezovu bir başqa bucaq altında görə bilərsiniz:

"Doğulduğu torpaqların solğunluğunu, yaşamış qədərini hər zərrəsində hiss edən, doğulduğu xalqın keçmiş əsrlərədək və sonrakı dərdini, iztirabı ilə sevincini ürəyinə salan, keşməkeşli dönəmin bütün cəhətlərini qızıl qələmlə tablolaşdıran bir yazıçıdır. Elmi üfüqlərin enginliyi ilə, düşüncə və fikir dərinliyi ilə, sənət estetikasının (naxışının) inciləri ilə, həyata olan bağlılığı ilə, yaşadığı dövrdə neçə-neçə adlı-sanlı adamlar içində özəlliyi və özünəməxsusluğu ilə fərqlənən şəxsdir.

Luis Araqonun təbirincə desək, bütün bəşəriyyətin sənət xəzinəsinə Qazax xalqının, sadəcə, Qazax xalqının deyil, ucsuz-bucaqsız Avrasiyanın verdiyi və sayılıb-seçilən əsər kimi dəyərləndirilən "Abay yolu" eposu məhz Qazax dilində yazılmışdır. Bu dil isə nəsildən nəsilə soyunu davam etdirdiyi

milli ruhun kimliyini, duyğu zənginliyini isbat etdi. Dahisi olmayan millət dirəyi olmayan evdir.

Yalnız belə bir təmtəraqlı, anlamlı gündə deyil, heç bir zaman xalqın yaddaşından silinməyən, tarixin də, taleyin də süzgəcindən keçib gedən bir dahidir Muxtar Ayezov..."

## PUŞKİN, JARODİ VƏ KAYHAN DƏDƏ

Qədr gecəsində Kayhan Dədənin yanına getdim. Kayhan Dədəm yaşlı və xəstədir. Ayaqlarından şikayət edir. Bilirəm ki, əslində şikayət eləməyi də yoxdur. Ömrünü-gününü millətinin, dövlətinin, dininin dərdlərinə sərf etmiş bir insandır. Kayhan Dədənin bu sözləri nə qədər də ürəyə yatımlıdır: **"Mən millətimi və məmləkətimi dinim qədər çox sevirəm".** Üstəlik bir sözü də var, məni yandırıb yaxır: **"Günəş kimi olacaqsan. Çünki günəş hey verir, verir... Amma əvəzində bir kimsədən bir şey ummaz..."**

Kayhan Dədəm kiçikli-böyüklü kitablar hazırlayıb. Pulsuz-parasız paylayıb durur. Bu gəlişimdə mənə yenə də bir neçə kitab hədiyyə etdi. Sonra onların içindən birisini - "İnsan və inam" adlı kitabı seçib: **"Bu kitabçanın 12-ci səhifəsini oxu və**



**qəzetinin köşə yazısında ver"** dedi. Başımın üstündə Kayhan Dədə durub, mən isə yazıram:

**"Puşkin məşhur rus şairidir. Dünya şöhrətli bir yazıçıdır. Bir çox ədibin yaradıcılığına güclü təsir etmişdir. Qurani-Kərimi oxuduqdan sonra belə bir şer yazmışdır:**

**Rəhimdir O, Rəhmandır O,**
**Nur saçan Quranı**
**Məhəmmədlə göndərəndir O.**
**Pərdələr... pərdələr... Qalxsın pərdələr!**
**Gözümüzün önündən qalxsın əngəllər!**
**Qurani-Kərimlə aramızdakı divarlar**
**Yıxılsın artıq birər-birər..."**

**(sətri tərcümə)**

Rusiya dövlətinin üsul idarəsi Puşkinin Quran və İslam dini haqqında yazdığı şerlərin çapını bu gün də qadağan etməkdədir.

Puşkin deyir: **"Əgər bir adam Ortodoks kilsəsinəmi, yoxsa İslam dininəmi ibadət etməli" sualı ilə qarşılaşarsa, qarışıq və anlaşılmayan bir din qavrayışı əvəzinə (yəni üç sifətli tanrı... İsanın çarmıxa çəkilməsi, İsanın anasına yalvarışları, müqəddəslərə və onların şəkillərinə (surətinə) bitməz-tükənməz ibadətlər...) tək olan Allahı və Pey-**

**ğəmbəri seçər. Yəni İslam dininə tapınar. Ən son və ən böyük din İslamdır".**

Başqa bir örnək: **Roger Jarodi fransızdır.** Dinsiz bir ailənin cocuğu olaraq böyümüşdür. Kommunist Partiyasının Marksist Araşdırma və Tədqiqatlar İnstitutunun direktoru olmuşdur. Marksizm fəlsəfəsi haqqında çeşidli kitablar yazmışdır. Millət vəkili və senator olmuşdur. Daha sonra Fransada prezident seçkilərində namizədliyini irəli sürmüş, siyasi çəkişmələr nəticəsində həbs edilmiş, türməyə salınmış və Əlcəzairə sürgün edilmişdir. Əlcəzairdə müsəlmanlardan o qədər yaxşılıq görmüşdür ki, ömrünün sonrakı illərini İslam dininin tədqiqinə həsr etmişdir. 1981-ci ildə 68 yaşında bütün dünyaya müsəlmanlığı qəbul etdiyini bəyan edərək **"İslamı seçmək (yəni İslam dininə tanınmaq - tərc.), müasirliyi seçməkdir. İnsanın aradığı bütün sual və cavablar İslamdadır. İslam müasirliyi arxasınca aparan bir dindir. Quran nazil olduğu, göydən endiyi gündən bəri Zamanın özünə hökm etmişdir. Zaman yaşlanacaq, amma Qurani-Kərim həmişə cavan qalacaqdır"** demişdir.

Kayhan Dədənin kitablarında başqa örnəklər də var. Sağ olsun Kayhan Dədəmiz deyirəm. Ömrün uzun olsun. Tanrı sənin işığını artırsın...



## KAYHAN DƏDƏNİN DUASI

Kayhan Dədəm bir dua mətni verdi. Peyğəmbərimizin sözlərindən yararlanaraq yazılan bir dua. **"Bu duaya bütün insanlarla ortağıq. Bu insanlığın ortaq (müştərək) duasıdır"** dedi. Bu duaya "amin" deyərək sizinlə bölüşmək istəyirəm:

Allahım!
Lütf et ki, getdiyimiz hər yerə
barış apara bilək
Nifrət olan yerə sevgi,
Yaralı olan yerə şəfqət,
Qorxu olan yerə inanc,
Ümidsizlik olan yerə ümid,
Qaranlıq olan yerə aydınlıq
Və üzüntü olan yerə sevinc aparaq,
Diqqətcil olmağı bizə lütf et!

* * *

Allahım!
Qüsurları görənlərdən deyil, örtənlərdən;
Təsəlli arayanlardan deyil,
təsəlli verənlərdən;
Yalnız sevilməyi istəyənlərdən deyil,
Sevənlərdən olmağımıza yardım et!
Yağmur kimi

Heç bir şeyə ayrı-seçkilik qoymadan
Yağdığı hər yeri canlandıran,
həyat bəxş edənlərdən;
Günəş kimi heç bir şeyi ayırmadan
İşığıyla bütün varlıqları
Aydınlığa çıxaranlardan;
Torpaq kimi hər şeyin üstünü
Ört-basdır etdiyi halda,
Heç bir şeyini əsirgəməyib,
Nemətlərini hər kəsə verənlərdən
Və gecə kimi eyibləri və qüsurları örtən,
Aləmin dincəlməyinə imkan
yaradanlardan olmağı.
Bizə lütf et!

Alan deyil, verən əllərin,
Əfvedici olduğu üçün əfvedənlərin,
Haqq üçün doğulan,
Haqq üçün yaşayan və haqq yolunda
ölənlərin
Və əbədi yaşamaq üçün yenidən
doğulanların
Səfinə (cərgəsinə) qatılmağı bizə nəsib et!
Amin!..



## İÇİNDƏKİLƏR

Ön söz .......... 3
Türk olmaq .......... 6
Bizim milliyətimiz .......... 10
Atatürk və türk milləti .......... 18
Türk ziyalısı .......... 21
İnsanı sevmək .......... 23
Əhməd Yasəvi yolu .......... 27
Əhməd Yasəvini tanıyırsınızmı? .......... 29
«Toplumçuluq» .......... 32
Türkcənin zənginlikləri .......... 35
Əhməd Yasəvi və dilimiz .......... 38
Atatürk və İslam .......... 40
Pakistan, Banqladeş və Atatürk .......... 45
İnsan Süleyman Dəmirəl .......... 48
Alparslan Türkeş .......... 50
Yeni Turan səfəri .......... 53
Füzuli və yeddi söz .......... 55
Nizami və eşq .......... 58
Hüseyn Cavid .......... 60
Heydər Əliyevi xatırlayarkən .......... 62
Salam olsun Bəxtiyar Vahabzadələrə .......... 68
Muxtar Ayezov .......... 71
Puşkin, Jarodi və Kayhan dədə .......... 74
Kayhan dədənin duası .......... 77

**Namik Kamal Zeybək**

# TÜRK OLMAQ

*Yığılmağa verilmiş 22.06.2007.*
*Çapa imzalanmış 06.07.2007.*
*Şərti çap vərəqi 4,7. Sifariş № 393.*
*Kağız formatı 70x100 1/32. Tiraj 200.*

*Kitab «**Nurlan**» nəşriyyat-poliqrafiya müəssisəsində hazır diapozitivlərdən çap olunmuşdur.*
*Direktor: **prof. N.B.Məmmədli***
***E-mail: nurlan1959@yahoo.com***
*Tel: 497-16-32; 850-311-41-89*
*Ünvan: Bakı, İçərişəhər, 3-cü Maqomayev döngəsi 8/4.*